**Dünya Gənc Türk Yazarlar Birliyi**
*www.dgtyb.org, www.bizimyazi.com*

# SƏS... SÖZ... RƏNG...

***(Ədəbiyyat, Musiqi, Təsviri sənət və Gənclik...)***

***"Elm və təhsil"***
***Bakı – 2015***

**Bu kitab Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyələşdirdiyi "Ədəbiyyat, Musiqi, Təsviri sənət və Gənclik" adlı layihə çərçivəsində işıq üzü görüb.** (Kitab DGTYB tərəfindən hazırlanıb, onun içəriyi hər hansı formada Fondun mövqeyini əks etdirmir.)

*Layihə rəhbəri:* **Əfsanə ƏLƏSGƏRLİ**

*Tərtibçilər:* **Sərdar ŞİRVAN**
**İntiqam YAŞAR**
**Şəfa VƏLİ**
**Tural ADIŞİRİN**

*Redaktorlar:* **Əkbər QOŞALI**
*dos.dr.* *dos.dr.* **Rəsmiyyə SABİR**
**İltifat HACIXANSULTANLI**

*Məsləhətçilər:* *Millət vəkili dr.* **Cavanşir FEYZİYEV**
*prof.dr.* **Fuad MƏMMƏD**OV
*prof.dr.* **Rahid ULUSEL**
*dos.dr.* **Ziyadxan ƏLİ**YEV
*dr.* **Yunus OĞUZ**
**Aliyə MƏMMƏD**OVA

*Rəyçilər:* *dos.dr.* **Şəmil SADİQ**
*dr.* **Nemət QASIMLI**
**İbrahim İLYASLI**
**Nəvai METİN**
**Elşən ƏZİM**

**Səs... Söz... Rəng... (Ədəbiyyat, Musiqi, Təsviri sənət və Gənclik...)**
**Bakı, «Elm və təhsil», 2015, 232 səh.**

***Toplunun üz qabığında Elmar Məmmədzadənin "Nəğməli dünyam" (ipək üzərində rəsm) əsəri, arxa qapağında isə Şəhla Kərimovanın "Butalı aşiq aşıq" əsəri verilib.***

**ISBN 978-9952-8176-8-3**

# Ön söz yerinə

Estetik dəyərlərin harmoniyası... – Bu, bütün dövrlərdə toplumda diqqət mərkəzində yer alan bir məsələ olmayıb, amma bu harmoniya bir qanunauyğunluq kimi bəşər tarixinin bütün aşamalarında mövcud olub. Ədəbiyyat, musiqi, təsviri sənət bəşəriyyətin ibtidai dövrlərindən başlayaraq, müəyyən harmoniya ilə inkişaf edir. Bu günkü gəncliyi həmin harmoniyanı dərkə çağırış, onların diqqətini bu önəmli mövzuya yönəltmək, konkret layihə çərçivəsində tədbirlər həyata keçirmək təqdirəlayiq işdir. Dünya Gənc Türk Yazarlar Birliyinin (DGTYB) bu sahədə atdığı ilk addım gələcəkdə incəsənət sahələrinin qarşılıqlı yaradıcılıq ilişkilərinə çox əlavələr edəcək, ümumilikdə ədəbi-mədəni ilişkilərin intensivləşməsinə, yeni bir məzmun qazanmasına öz töhfəsini verəcəkdir.

Estetik zövqü müəyyənləşdirən çoxsaylı amillər içərisində konkret yaradıcılıq sahələrinin – musiqinin, təsviri sənətin və ədəbiyyatın üzvi bağlılığı elə durumdadır, onlardan biri həmişə, (ixtiyarsız olaraq) digərini xatırlatmağa xidmət edir. Biri digərini öz mahiyyətində yaşadır. Çünki, şair kimi bəstəkar da, rəssam da ahəngin övladıdır, onları həyəcanlandıran, yaradıcı təxəyyülünü hərəkətə gətirən, yaratmağa sövq edən amillər, səbəblər eynidir. Böyük bəstəkar Frans Şubert deyirdi, "yaxşı musiqi əgər təkcə yaxşı musiqidirsə, o yaxşı musiqi ola bilməz." Bu fikir belə bir həqiqəti diqtə edir ki, yaxşı musiqi bizim xəyallarımızı alıb uzaqlara aparırsa, düşüncələrimizə yeni nəsnələr əlavə edirsə, yaddaşımızda bir roman qədər dərin iz buraxırsa, o ədəbiyyat kimi zəngin və geniş məzmunludur... Yaxud konkret həyat lövhələrini bütün rəngarəngliyi ilə gözlərimiz önünə gətirirsə, burada yaxşı musiqi, həm də rəssamlıqdır...

Eyni paralelləri bədii fikrin, yaxud rəssamlığın digər incəsənət sahələri ilə ilişkisi baxımından da yorumlamaq olar. Təbiətdən doğma səsləri ayırıb müəyyən ahəngə gətirən, bu ahəngi təntənəli surətdə topluma təqdim edən, insan düşüncəsinə sözlərlə təsir göstərən şair də, bu səsləri rənglərin dili ilə danışdıran rəssam da, onları notlara köçürən bəstəkar da eyni məharətin sahibidir... Təsadüfi deyil ki, dünya mədəniyyəti tarixində ədəbi istedadı ilə tanınan böyük sənətçilər incəsənətin digər sahələrində də məharət göstəriblər. Görkəmli rus yazıçısı A.S.Qriboyedov həm də bacarıqlı bəstəkar olmuşdur. Onun yazdığı valslar indi də çalınmaqdadır. M.Y.Lermontov həm də mükəmməl karikatura ustası idi. Yapon ədəbiyyatının görkəmli nümayəndəsi, Nobel ödülçüsü K.Yasunari həm də rəssam tə-

xəyyülü, peşəkar fotoqraflıq məharəti ilə tanınırdı. Vəfatından sonra onun Kamakuradakı evindən tapılan, yazıçının pərəstişkarlarını daha bir istedadı ilə heyrətdə qoyan çoxsaylı əsərləri bunun bariz örnəyidir. Yaxud da, rəssamlıq, bəstəkarlıqla yanaşı ədəbi yaradıcılıqla məşğul olan sənətçilər çox olmuşdur. Tanınmış rus rəssamı V.Q.Perov həm də yazıçı idi. Onun Moskva həyatından bəhs edən hekayələri dəyərli bədii örnəklər kimi dönə-dönə çap edilib. J.J.Russo həm yazıçı, həm bəstəkar, həm də böyük filosof kimi tanınırdı. A.Kunanbayev yazıçılıqla yanaşı bəstəkarlıqla da məşğul olub. Böyük Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəyli həm də böyük yazıçı və tənqidçi idi. Bu kimi misalların sayını yetərincə artırmaq olar.

Qeyd etdiyimiz faktlar bir daha isbat edir ki, sənət sevgisi heç bir məhdudiyyət tanımır. Bu sevginin kökü, qaynağı birdir. Emil Zolyanın yazdığı kimi, "incəsənət insan duyğusunun süzgəcindən keçmiş təbiətdir". Bədii sənətin də, rəssamlığın da, musiqinin də cövhərində təbiət var. Buna görə də, onların harmoniyası təbiətin özü qədər təbii və zəruridir. Lakin burada çox incə bir nüansı da nəzərdə saxlamaq lazımdır ki, estetik dəyərlərin harmoniyası eyni zamanda, millilik amilinə söykənməlidir. Milli özülü, dayağı olmayan, millilikdən uzaq düşən sənət həqiqi sənət deyil, onun cövhərində bir sünilik, saxtakarlıq var... və belə bir sənət inkişaf yolunda çox uzağa gedə bilməz. O əsər böyük uğur qazana bilir ki, o millidir. Sənətin bəşəriliyə gedən yolu məhz millilikdən keçir. Milli olmayan əsər ümumbəşəri miqyasda nüfuz qazana bilməz. Yaradıcı gəncliyi ilk növbədə bu önəmli məziyyətə diqqət yetirməyə yönəltmək lazımdır.

Çağdaş dövrdə bəzən çox əcaib əsərlərlə qarşılaşırıq. İstər rəssamlıqda, musiqidə, istərsə də ədəbiyyatda özünü ifrat dərəcədə göstərən yad ünsürlər gənclərimizdə sənətə ehtiram, rəğbət əvəzinə, ikrah hissi yarada bilər. Öz yaradıcı "mən"ini son dərəcə fərqli ifadə etmək, seçilmək tendensiyasından irəli gələn bu əllaməçilik getdikcə geniş yayılır. Başqalarından daha fərqli düşündüyünü qabarıq nəzərə çatdırmaq, daha orijinal, elitar səviyyəli sənətçi olduğuna inandırmaq cəhdi belə yanlışlıqlara yol açır. Bir önəmli cəhət unudulur ki, gələnək üzərində boy atmaq, millilikdən qaynaqlanıb yüksəlmək bütün dövrlərdə incəsənətin orijinallığını təmin edib, onun təzə-tər görünməsinə stimul verib. Müxtəlif sənət cərəyanlarının mahiyyətini dərk etmədən öz təxəyyülünü hansısa "...izmlər"in çərçivəsinə qapatmaq, Qərbin əldə etdiklərinə qondarma istinadlar, yaratdığın əsəri əlaqəsiz surətdə, yerli-yersiz müəyyən istiqamətin örnəyi kimi təqdim etmək... bütün bunlar yaradıcı insanın həqiqi sənət yolunu tapmasına

mane olan cəhətlərdir. Unutmaq olmaz ki, sənət əsəri bütün əlavə "bər-bəzək"dən təmizlənib təkcə milliliyində, təbiiliyində qalarsa, bu onun uzunömürlü olmasına yetər. Sənətçi istedad baxımından kamil olmasa belə, sənətinin milli aspekti ilə əbədiyaşarlıq qazana bilər. V.Q.Belinski xəlqilikdən məhrum istedadlı şairi öncə gur qol-budaq atıb göyərən, lakin kökü dərinlərə işləmədiyindən tezliklə quruyan ağaca bənzədirdi. Buna görə xəlqilik, millilik dahilikdir. Dahilərin hamısı milliliyi əsərlərinin ruhuna, onun ideyasına, məzmununa, bədii içəriyinə hopdura bildikləri üçün dahidirlər. V.Hüqonun bütün yazdıqları bizə fransız ruhunu, fransız təfəkkürünü tanıdır; L.Tolstoyun əsərləri rus xarakterini canlandırır; F.Dostoyevski rus aydınının qartal baxışları ilə həqiqəti cilalayır; T.Şevçenkonun yaradıcılığında ukraynalının ürəyini görürük, Ç.Aytmatovun yaratdıqları qırğız həyatının ensiklopediyasıdır və s...

Müxtəlif vaxtlarda və fərqli millətlərin Nobel ödülçülərinə bu yüksək ödülün hansı səbəblərə görə verildiyini araşdırdıqda bir həqiqət üzə çıxır ki, yazıçıların böyük əksəriyyəti milli ruhu, milli xarakteri əsərlərində dürüst ifadə etdikləri üçün bu ödülü alıblar. Yaponiyanın ilk Nobel ödülçüsü Kavabata Yasunariyə ödül məhz "yapon şüurunu, varlığını çatdıran yazıçılıq ustalığına görə" verilib (1968-ci ildə)...

Burada önəmli bir faktı qeyd etmək lazımdır: Yaponiya yeganə ölkədir ki, yüzillərlə öz qapılarını yadellilərə, eləcə də, Avropaya bağlı saxlayıb. XIX yüzildə baş verən Meyci inqilabına qədər yaponların digər millətlərlə heç bir ilişkisi olmayıb. Burada başlıca məqsəd millətin varlığını, onun tarixini, dilini, mədəniyyətini, ədəbiyyatını və s. yadelli təzyiqlərdən, təsirlərdən qorumaq idi. Bu gün dünyada yaponlar qədər öz milliliyini qoruyub saxlayan, orijinallığı, özünəməxsusluğu ilə seçilən ikinci bir millət yoxdur. XIX yüzildən başlayaraq başqa mədəniyyətlərə inteqrasiya, eləcə də Avropayla hərtərəfli ilişkilər yaponlardan heç nə qoparıb ala bilmədi, yüzillərlə möhkəmlənən yapon milli təfəkküründən heç nə əskilmədi, əksinə bu inteqrasiya onların yaşamına yeni bir rəng qatdı. Diqqət edin, bu inteqrasiya yaponları dəyişdirmədi, onların fikrini kökündən təzələmədi, məhz düşüncələrinə rəng qatdı.

Bu günkü yaradıcı gəncliyi məhz bu səviyyədə milliliyə səsləmək lazımdır. Qoy azərbaycanlı bir rəssamın, musiqiçinin, yazıçının əsəri ilə tanış olanda, onun mahiyyətində bütöv Azərbaycan görünsün, bizim çox zəngin milli xarakterimiz burada öz əksini tapsın..! Axı bizim Vətənimiz yüzillərlə yadelli işğallara məruz qala-qala, başqa millətlərin təsirində

ola-ola öz milli kimliyini yaşada bilib; dilini, ədəbiyyatını, musiqisini göz bəbəyi kimi qoruyub. Bu anlamda, ərəblərin, farsların, monqolların, rusların və b. millətlərin yüzillərlə işğalı altında qalan millətimiz milli varlığını məhv olmağa qoymayıbsa, onun milli mədəniyyətini yaşadığımız müstəqillik dövründə qoruyub yaşatmaq heç də mürəkkəb iş deyil.

DGTYB ədəbi təşkilatdır, amma onun incəsənətin digər sahələri ilə ədəbiyyatı vəhdətdə götürən bir layihəyə imza atması sevindirici, qürurvericidir.

Çalışmaları ilə Türk Dünyasında nüfuz qazanan DGTYB mənsublarının fədakar əməyi sayəsində ərsəyə gələn belə tədbirlərin öz səmərəsini yaxın gələcəkdə gərəkən səviyyədə verəcəyini təxmin etmək çətin deyil.

*dos.dr.* **Təranə TURAN (RƏHİMLİ),**
***DGTYB***
***Məsləhət Şurasının üzvü***

## Layihə rəhbərindən
***bir neçə söz***

Söz, səs və təsvir. Bu üç məfhum həyatımızda nə qədər bir-birindən fərqlənirsə, o qədər də bir-birilə bağlıdır. Bəşəriyyət yarandığı dövrdən elə təbiətin gözəlliklərini, ecazkarlığını məhz bu üç məfhumla təsvir etməyə çalışıb. Təbiətdəki estetik harmoniya insanı o qədər valeh edib ki, zaman-zaman kimisi gördüyü mənzərəni sözə çevirərək ədəbi örnəklər yaradıb, kimisi təbiətdə eşitdiyi səslərdə – quşların civiltisində, çayların şırıltısında bir melodiya duyaraq, musiqi əsərləri bəstələmiş, kimisi də gördüyü mənzərələri fırça ilə təsvir edərək möhtəşəm rəsm əsərləri yaratmışdır. Bu üç fərqli sənət sahəsi hər zaman insanlığın mənəvi ruhunu zənginləşdirməklə yanaşı, həm də bütövlükdə fərqli sənət sahələri arasında qarşılıqlı fikir mübadiləsinə və qarşılıqlı təsirə də imkan yaratmışdır. Hər zaman yaradıcı insanların fərqli düşüncələri və qarşılıqlı söhbətləri maraqlı tapıntılara gətirib çıxarır. Odur ki, fərqli sənət adamlarının, özəlliklə də, gənc yaradıcı insanların düşüncələrini bir-birilə bölüşməsi önəmlidir. Lakin çağdaş dövrümüzdə Azərbaycanda fərqli sahədən olan yaradıcı gənclərin bir araya toplanması və bir-birinin yaradıcılığından bəhrələnməsi və ya ortaq layihələr gerçəkləşdirməsi az rastlanan haldır.

Qloballaşan dünyada baş verən proseslər, yüksək texnologiyaların inkişafının yaradıcı sahələrə təsiri və s. səbəblər üzündən bu gün ədəbiyyat, bəstəkarlıq və rəssamlıq sahəsində istedadı ilə seçilən, parlaq gələcək vəd edən yaradıcı gənclər arasında işbirliyi arzuolunan səviyyədə deyil. Odur ki, DGTYB Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "Ədəbiyyat, Musiqi, Təsviri sənət və Gənclik" adlı layihə ilə çıxış etdi. Layihə çərçivəsində belə bir toplunun nəşri məqsədəuyğun sayıldı. Topluda gənc yazarların, rəssamların və bəstəkarların yaradıcılıq örnəkləri yer alır. Toplunun unikallığı da elə bu üç fərqli sənət sahəsində uğur vəd edən yaxud uğur qazanmış yaradıcı (istedadlı) gənclərin yaradıcılıq örnəklərini daha geniş ictimaiyyətə təqdim etməkdir. Ümid edirik ki, bundan sonra bu layihə vasitəsi ilə tanış olan yaradıcı gənclər, bir-birinin əsərlərindən təsirlənərək, ortaq layihələr gerçəkləşdirəcək, insanların estetik dəyərlərinin formalaşmasına öz töhfələrini verəcəklər.

Beləliklə, sizləri gəncliyin yaradıcılıq örnəkləri ilə baş-başa qoyuruq…

**Əfsanə ƏLƏSGƏRLİ**

# ŞEİR MEYDANI…



## AFƏT VİLƏŞSOY

(Afət Yusubəli qızı Abuşova) –

*1985-ci ildə Masallıda doğulub. Afət BDU-nun Filologiya fakultəsində oxuyub. Daha sonra təhsilini BSU-nun Azərbaycan ədəbiyyatı kafedrasının magistri olaraq davam etdirib. 2011-ci ildə isə yenidən doğma BDU-ya qayıdaraq, dissertant kimi elmi fəaliyyətini davam etdirib; habelə BDU-nun nəzdində fəaliyyət göstərən "Gənc istedadlar" liseyinin müəllimi olaraq çalışmağa başlayıb.*

*"Könül pıçıltısı" (2004), "Çiçək nəğməsi" (2006), "Salam, Tanrım" (2008), "25 Nar çubuğu" (2010), "Söyüd balası" (2012) adlı kitabları işıq üzü görüb. 2011-ci ildə Azərbaycan Prezidentinin Təqaüd Fondunun təqaüdçüsü olub. DGTYB-nin üzvüdür.*

### Sənə…

Adım dilinə gəlsə,
sözlərin aydın olsun.
Dərdim səndən doğulub,
izlərin aydın olsun.

Sevgimiz qadağandı,
bəladı, qada-qandı...
Baxışım sadağandı,
nazlarım aydın olsun!

İlim-ilim itirəm,
nağıl oldum, bitirəm...
Sən getmə, mən gedirəm,
gözlərin aydın olsun..!

*17.08.2015*

## Mən səninçün darıxanda...

Ruhun duymaz, ölüb qallam yolunda,
Yazıq canım duruxanda nə edim?
Sən Tanrının mənə olan sevgisi,
Mən sevgiyə başağrısı, dərd idim…

Ürəyimin üzü də var, üzülmür,
Sənsiz olan yuxularım çözülmür;
Adam oğlu, döz deyirsən, dözülmür,
Həsrət içdim, kədər uddum,
qəm yedim...

Səndən gələn kəramətdi mənimçün,
Lap behiştə işarətdi mənimçün;
Səhər-axşam ibadətdi mənimçün,
Mən səninçün sevgimə də din dedim...

Qəfil sənə qoxum gəlsə, nə dersən?
Külək olub, işıq olub gələrsən?
Can yiyəsi, yenə özün bilərsən,
Mən səninçün darıxanda nə edim.?!

*02.10.2015*

## Daha nələrdi…

*Sevəndə yazılır sevgi şeiri,*
*Sonradan yazılan xatirələrdi.*
***Vüsal Oğuz***

Öldürdü bu sevgi, öldürdü bizi –
Bıçaqdı, tətikdi, daha nələrdi..?
Narahat ruhlardı yerə enənlər,
Həftənin günləri bəhanələrdi.

Yağıya, düşmənə gərəyimiz yox,
Qocalıb ölməyə diləyimiz yox;
Sevgidən keçirik, ələyimiz yox,
Ələnib keçənlər əfsanələrdi…

Güləndə üzünə düşən cizgidi,
Gedəndə yolunda qalan kədərdi..
"Sevəndə yazılır sevgi şeiri,
Sonradan yazılan xatirələrdi"...

*29.06.2015*



## AMİL AĞALI

(Amil Vaqif oğlu Ağayev) –

*06.04.1983-cü ildə Sumqayıtda doğulub. 1990-2000-ci illərdə Sumqayıt şəhər Mikayıl Müşfiq adına 34 saylı orta məktəbdə oxuyub.*

*2014-cü ildən DGTYB-nin üzvüdür.*

### Şəkillər

Üstümə, başıma baxıb getdilər,
Bir nəfər də məni görə bilmədi.
Bilmədi şəklimə dikilən gözlər,
Şəkillər gün-gündü, ilmə-ilmədi.

Şəkillər fikirdi, duyulmaq üçün,
Bir guşəsin tutub durar həyatın;
Bir gün ilmə-ilmə sökülər bütün –
Daha mənasını duydun-duymadın…

Şəkillər sökülür, məna toxuyur,
Bəlkə də, ölmədə budur dirilmə...
Varlıq yox olduqca yoxluğu duyur,
Mənaya sadiqdir qopan hər ilmə…

…Məni də sevməkçün tanımaq gərək,
Görünüş, oluşu qapsayan pərdə…
İnsan dedikləri… Ürəkdi, Ürək!
İlişib dayanma görüntülərdə..!

Gərək ağıl sala hər şeyə nəzər,
Gərək həqiqəti seyr edə insan...
Yalnız şəkilləri görürsə əgər,
Nə fərqi, quşlardan, qarışqalardan?!

Şəkillər idrakla fikrin körpüsü,
Şəkillər məcazdır… fikir yürüdür…
Şəkillər bir böyük Sirrin örtüsü,
və də zərrə-zərrə təzahürüdür…

## Düşünmək

Düşünmək nədir deyə,
Qapıldım düşüncəyə…
Göyləri "qarış-qarış
gəzdi" xəyal köhlənim.

Hər yanlışım bir səbəb
olunca düşünməmə,
Düşünməyim, özümlə
mühakiməmmiş, demə…

Yaşamaq yanmaq ikən
Yanmaq-düşünmək imiş.
Közərirkən, bir "ah!"dan,
Məşələ dönmək imiş…

Düşünmək… vara-yoxa
Ondan əlac istəmək.
Düşünmək – O varlığa
Ruhən əl açmaq demək…

…Düşünmək – zaman, məkan
üstündəki bir yaşam… –
Mənim qəlb gözləriylə
həqiqətə tamaşam…



## ARZUMAN SAVADSIZ

(Arzuman İman oğlu Orucov) –

*1984-cü ildə Kəlbəcərin Ağdaban kəndində doğulub. Həmin kənd orta məktəbində 3-cü sinfə qədər təhsil alıb. Kəlbəcərin Ermənistan tərəfindən işğalı sonucunda doğma elindən məcburi köçkün düşmüş Arzuman, orta təhsilini belə davam etdirə bilməyib… Hazırda Goranboy rayonunun Qaraçinar kəndində məskunlaşıb.*

### Təcnis

Qara qaşlar, qara gözlər, gül yanaq,
Bu naz da, qəmzə də bu gözəlindi.
Ləbini ver, gözlərində gül, yanaq,
Olub ağ göyərçin, gəl, gözəl, indi…

Gözəl olar tellərini dara, yan,
Gözəl deyir gözəl telim dara, yan.
Gözəl, mən olsaydım telin darayan,
El-oba deyərdi, bax, gözəl indi…

Büllur buxaq sinəsinin gül üstə,
Altı ləldi, cəvahirdi gül, üstə...
Ay Arzuman, bülbül oldun gül üstə,
Gələn gözəl, bil, sənin gözəlindi…

### Bağlama

Bir əmmaya tuş olmuşam, həzarat,
Deyin, nədir: ayağı bir, başı beş?
Gündən günə hər gün artır çoxalır,
Hey dolsa da, dolusu bir, boşu beş…

Deyin, nədir – biri yüzdü, yüzü bir,
Deyin kimdir – özü birdir, sözü bir?
Deyin, nəyin dizi birdi, izi bir? –
Üzü birdi, gözü birdi, qaşı beş…

Arzuman söyləsin ucadan uca,
Görənlər çalışır əlindən qaça…
Nə uşaqdı, nə cavandı, nə qoca,
Ayı birdi, günü birdi, yaşı beş…

## Zəncirli, cığalı müxəmməs

Canı edib gözdən uzaq sanki cıxıb yoxa dilbər,
Yanıram hicran oduna, heç insafin yox, a dilbər.
Az da məni qane edər, tamahım yox çoxa, dilbər,
Məhəbbətdən kəm qalma sən, var dövləti çox, a dilbər.

Gözləri qara,
Telini dara,
Rəhm elə yara.
Qurbandı canı,
Eylə fərmanı,
ya ol cananı,
ya atıb eşqin oduna, yandır məni, yax, a dilbər…

Səni görcək aşiq oldum, bil, o hüsnü-camalına,
Gözlərim dikilib qalıb, ağ üzdə qara xalına.
Baxıban tamah eylədim dodağındakı balına,
A bimürvət, nəzər eylə, aşiqinin bu halına.

Çatarsan kama,
Gəlib ilhama…
Qıyma bu cana.
Gəzək bərabər,
Sinəsi mərmər,

Sərin meh əsər,
Mehi ilahi göndərib, qoy açılsın yaxa, dilbər…

Bir biçarə qulunam mən, sən ol ədalətli şahım,
çağır gəlsin cəlladını, əgər olarsa günahım.
Təkcə sənə bağlanmışam, eşqim, umudum, pənahım,
Sənsizliyə atma məni, ərşə çıxar aman ahım...
Səndən sevgi dilənmişəm,
Dərdə-qəmə bələnmişəm.
Ürəkdən güllələnmişəm,
Əmrin ilə ölənmişəm…

Salmısan gümana məni,
Döndərdin Məcnuna məni.
Etmisən pərvanə məni,
Eyləmə divanə məni,
Belə zülumkar olma, gəl, ol, ürəyi yuxa, dilbər.

Sənsiz keçir ömür hədər, gedir günüm-ayım boşa,
Keçən keçib, qalan ömrü aşiqinlə birgə yaşa.
Bir oturaq, qoşa gəzək, gəl, bərabər dolaq yaşa,
Görənləri valeh edək, gələk bu dunyada xoşa.

Olasan qismət payım,
Ulduzum, Günüm, Ayım.
Hər fəsildə çiçək aç,
İlkbaharım, isti yayım.
De, sənsiz keçən günü,
Necə ömürdən sayım?

“Hə” denən yara,
sağalsın yara.
Geyin zərxara,
qulluq et nara,
salma azara.
Görəndə Arzuman gəlir, qənşərinə çıx, a dilbər.



## AYDAN ABDULLA

*24 avqust 1998-ci ildə Bakıda doğulub.*

*XI sinif şagirdidir. Poeziya aləminə bəslədiyi böyük həvəsi, sevdanı... elə poeziyada təcalla etdirməyə çalışır.*

***

Ay ana, bilirsən..? qızın şairdi,
Yağışda bəxtinin islanmağı var...
Onun sən böyüdən ürəyi şeirdi,
Onun dərdlərinə yalvarmağı var...

Ay ana, bilirsən..? qızın şairdi,
Bir "ah" çəkdiyində min yol dolanır.
Deyirlər, ağlamaq şairə xeyirdi,
Hər gecə köksündə ocaq qalanır...

Ay ana, bilirsən..? qızın şairdi,
Deyir dözəmmirəm… - birtəhər dözür.
Könlü də küsəndə, küsdürür şeiri...
İçində ölərək, dərdini "çözür"…

Ay ana, sən bilmə qurbanın olum,
Gözümün yaşında boğulum, bilmə...
Hər azan səsində Allaha gedim,
Canına qarışıb, yox olum, bilmə...

***

Bu yerdə qəribdi bu qız, İlahi,
Yarpaq-yarpaq üşüdüyü gün olur...
Başqasına "ocaq yeri" ürəyi,
Özünə "bir soyuq daxma" da olmur...

Bu yerdə qəribdi bu qız, İlahi,
Nə ola, bir kimsə könlünü duya...
Allahın adını eşidən kimi,
Ruhu qanad açır bir içim suya...

Bu yerdə qəribdi bu qız, İlahi,
Bu qızın adını Özün qoymusan...
"Ya Allah! Deyibən getdiyim yerdə,
Səndən danışaraq ağaracaq dan...

Gecə Ay doğacaq, bu qərib qıza,
"Allah səninlədi, qorxma!" deyəcək...
Dan ağaran vaxtı azan səsini,
Göylərdən duyacaq, dua edəcək...



## CEYHUN GÖYÇƏLİ

(Ceyhun İsa oğlu Dünyamalıyev) –

*1984-cü il Göyçə mahalının Güney kəndində doğulub. 1988-ci ildə soydaşlarımızın öz doğma yurdlarından qovulması ilə Ceyhun da ailəsi ilə birgə Şəmkirin Ələsgərli kəndinə pənah gətirib. 2006-2010-cu illərdə Gəncə Dövlət Universitetinin Filologiya fakultəsində oxuyub. Hazırda Azərbaycan dili və ədəbiyyatı üzrə dərs deyir. Şeirləri bir sıra ədəbi nəşrlərdə, almanaxlarda dərc edilib.*

### Bir üzə

*(Təcnis)*

Ay sevgilim, gəl, hicrana son qoyaq,
Sevirəm de, bircə dəfə bir üzə…
Gedəmməz şeytan da sən gedən yolu,
Göstərər daxilin, verər biruzə…

Tale yazmır hər an gözələ gözəl,
İstər aləmi gəz, göz elə, gözəl…
Xoşlamıram baxa göz elə gözəl,
Xoşlayıram baxa başa, bir üzə…

Axtar qəm bəhrini, sən üzən ara,
Öz eşqi yolunda can üzən ara.
Qoy həsrət aşiqi sən üzə, nara,
De, sonra çıxarsan necə bir üzə?..

Ürəyimdə eşqin sönməz odu var,
Lazım deyil, mənə dövlət, odu, var!
Neçə ki, Ceyhun var, onla odu var,
Gələndə də əcəl candan bir üzə…

## ƏLHƏM DƏŞTİ (HÜSEYNZADƏ) –



*1994-cü ildə Bakı şəhərində doğulub. Klassik janrlarda şerlər yazır. Vaxtaşırı Maştağada təşkil olunan «Meraci-süxən» ədəbi məclisində iştirak edir. Hazırda Odlar Yurdu Universitetinin Filologiya fakultəsin IV kurs tələbəsidir.*

***

Üzün ki yadə düşür, aşiqin xəyalə düşür,
Xəyalən olsa da, o, məclisi-vüsalə düşür.

Ləbin verir qədəhə rəngini sən içdikcə,
Ləbindən aldığı rəngə həmin piyalə düşür.

Üzün görəmmədiyim gün günüm qara gətirir,
O qarə zülfün o dəm ki, o məhcəmalə düşür.

Sənin gözəlliyinə tazə gül misal olmaz,
O ruyini görən an gözdən əsl lalə düşür.

Vüsal həsrəti saldı məni biyabanə,
Nəzərdə saxla ki, gör Dəştini nə halə düşür...

***

Görünür qəlbimiz, ey dilbərim, abad kimi,
Leyk bərbaddən olmuş daha bərbad kimi...

Cümlə aşiqləri məst eylədi ahu baxışın,
Ovlamaq istədi hər kəs səni səyyad kimi.

Gah həyat bəxş eləyirsən mənə busənlə, gülüm,
Gah tökürsən qanımı bir qatı cəllad kimi...

Aşiq oldur ki, ya Məcnun kimi səhradə gəzə,
Ya da dağları külünglə çapa Fərhad kimi...

Kim ki aşiqliyi əla bacarırsa, söylər:
- Bunu Dəşti mənə öyrətdi, bir ustad kimi...

***

Vahid, ömrün boyu sən sakini-meyxanə idin,
Qəmi-eşq ilə həmişə gözü məstanə idin.

Çöhrəsində görünür surəti gül üzlülərin,
Bu səbəbdəndi ki, sən aşiqi-peymanə idin.

Sənə bica yerə məskən deyil Odlar Yurdu,
Çünki eşq atəşinə şövq ilə pərvanə idin...

Ey özü sadə, sözü sadə olan ustadım,
Çatmaz hər kəs o qəliz əqlinə, fərzanə idin.

Hər sözün indi də, Vahid, dilimiz əzbəridir,
Sağlığında necə ki, dillərə əfsanə idin...

Vahida, Dəşti sənin hər sözünün valehidir,
Hər sözün ayrı dəlil oldu ki, bir danə idin...

## GÜLBALA DADAŞ

(Gülbala Adil oğlu Musayev) –



*1984-cü ildə Bakıda doğulub. BSU-nun Yaradıcılıq fakultəsinin məzunudur.*

*2004-cü ildən Vahid Poeziya Məclisinin üzvüdür. Şeirləri dövri ədəbi nəşrlərdə yayınlanan Gülbalanın, çağdaş özbək ədəbiyyatından maraqlı ədəbi çevirmələr də var.*

***

Tutub ONA üzünü,
İtirəsən özünü;
Çıxarıb sol gözünü,
Sağ gözünü yumasan...

Qaçır zaman özündən,
Qorxur insan özündən.
Çıxıb bir an özündən,
Öz üstünə cumasan...

Verib süküta səsi,
Almayasan nəfəsi...
Tənha qoyub hər kəsi,
Sonra təklik umasan...

***

Yetmək üçün sənə, bir an belə yatmamışam,
Tükənib ömrüm, hələ yarı yola çatmamışam.
Qəlb evimdə hər nə vardırsa, söküb tullamışam,
Tək səni saxlamışam orda, səni atmamışam...

Hamını aldadıram, başda özüm olmaqla,
Amma bir dəfə də olsun səni aldatmamışam.
En yerə, al məni, qaldır göyə, sən – öz yanına,
Nə qədər yoxluğumu varlığıma satmamışam...

Zərrədən də kiçik etdim Günəş ikən özümü,
Çox heyif ki, yox olub səndə itib-batmamışam.
Kiminə pis, kiminə yaxşıyam, ancaq ki, Dadaş,
Özümü heç birinin cərgəsinə qatmamışam.

***

Mənə təb ver, İlahi, ver, çıxım özüm-özümdən,
Doğula fikir canımdan, yarana sözüm özümdən.

Dözürəm mən hər cəfaya, edirəm şükür Xudaya,
Bilirəm deyildi çünki, bu qədər dözüm özümdən...

Ölərəm hacansa mən də, elə iş görüm ki, indi,
Gələcək nəsillər üçün, qala bir izim özümdən...

Səni mən unutdum, amma ki, qalıb gözümdə əksin,
Demə, etibarli imiş, gözəlim, gözüm özümdən...

Dadaşın yamandı halı, qapılıb özündə qalmış,
Mənə təb ver, ey İlahi, ver, çıxım özüm-özümdən...



## GÜLNARƏ SADİQ

(Gülnarə Ələkbər qızı Qasımova) –

*1985-ci ildə Gəncədə doğulub. Gəncə Dövlət Universitetində (GDU) təhsil alıb(2006-2000).*

*Yazıları "Məhəbbət işığında", "Gəncliyin Səsi", "Dörd Mevsim" almanaxlarında, bir sıra qəzet və dərgilərdə dərc olunub. "Yuxuların günahı olmur" (şeirlər), "Paralanmış ürək" (hekayə və povestlər) adlı kitabların müəllifidir.*

### Gileyliyəm

Taleyimin nə suçu var?
Mən bəxtimə gileyliyəm.
Xəyanətin min üzü var,
Mən ürəyə gileyliyəm.

Həsrət ağlar harda, yarım?
Hər ümidi yarda, yarım...
Zaman doğrar yarım-yarım,
Mən diləyə gileyliyəm...

Dünya deyər, gör əzabı,
Sıx, qəlbinə hör əzabı...
Dünya kimi sür əzabı,
Mən kələyə gileyliyəm.



## GÜLNAR SƏMA
(Gülnar Vaqif qızı Qasımlı)

*1986-cı ildə Tovuzun Dondarquşçu kəndində doğulub. 2004-cü ildə BDU-nun Filologiya fakultəsinə daxil olub. 2009, 2014-cü illərdə Dondarquşçu kənd bələdiyyəsinin üzvü seçilib. Magistr təhsilini Azərbaycan Müəllimlər İnstitutunda alıb. 2014-cü ildə isə AMEA-nın Nizami ad. Ədəbiyyat İnstitutunun Ədəbi Tənqid şöbəsinə doktoranturaya qəbul olunub. 2001-ci ildə "Mən sehrli səmayam", 2011-ci ildə "İçimdəki söhbətlər" kitabı işıq üzü görüb. Hazırda "Hədəf" hazırlıq kurslarında çalışır. 2015-ci ildə 2 fevral – Gənclər Günü münasibətilə Gənclər-İdman Nazirliyinin ödülünü alıb. Azərbaycan Prezidenti Təqaüd Fondunun təqaüdçüsüdür.*

### Günlərin bir günü

Sən mənim ömrümə gələndən bəri,
Mən sənin ömründən-günündən keçdim.
Sən mənim qarşıma çıxandan bəri,
Görmədin, mən sənin önündən keçdim.

Keçdim günah kimi ömründən sənin,
Keçmə günahımdan, önə keçmə sən...
Mən sənin günahın olmaqdan qaçdım,
Qaçma günahımdan, önə qaçma sən...

Nəyimiz vardı ki, arxada qoyaq,
Ayrılıq gələndə qabağa düşdük.
Biz necə bir ömrə sahib olmuşuq, –
Günlərin bir günü özümüz çaşdıq...

## Qıydım

Gedin, deyin Xançobana,
Mən də batdım nahaqq qana.
Öz içimdəki zindana
Düşmək üçün cana qıydım.

Canlar alır Muğan çölü,
İndi yaxamdadır əli,
Saranı aparan seli,
Keçmək üçün cana qıydım.

Ac ölüməm toxluğumdan,
Parçalandım çoxluğumdan.
Varlığımı yoxluğumdan,
Seçmək üçün cana qıydım.

## Çobanaldadan

Çobanaldadan yağış,
qoy qoyunlar otlasın.
Bir az özünə yığış,
mən piyada, atlı sən...

Çobanaldadan yağış,
oynama hisslərimlə.
Tanrı xətrinə, barış
taledən küslərimlə...

Çobanaldadan yağış,
nə yağansan, nə kəsən.
Gözümdən yol salınca
gözlərimi tökəsən...

## GÜLSADƏ İBRAHİMLİ



*1986-cı ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Dizə kəndində doğulub. Naxçıvan Universitetinin Filologiya fakültəsini bitirib. 4 şeir kitabı nəşr olunub. AYB üzvü, Prezidentin Təqaüd Fondunun təqaüdçüsüdür (2015).*

*Culfa şəhər 3 saylı orta məktəbdə Azərbaycan dili və Ədəbiyyatı müəllimi işləyir.*

### Sərçə məhəbbəti

Fəsillər boyu gizlənirəm,
Özümü-özümüdə sıxıram.
Təbiətin ən duyğulu anı kimi,
Payızda üzə çıxıram.
Ağlamağı xatırlayıram,
Yadıma düşür
Mənim olmayacaq
Ən gözəl yaşanmışlar.
Rəngini dəyişir duyğularım,
Sis qoxan səma kimi.
Dəyişirəm ətrimi –
Artıq xəzəl qoxuram,
payızda üzə çıxıram.
Köç edir yaz sevgiləri,
Başqa Günəşə uçursan,
Quşlar təki...
Yeni yazlar axtarır
Başqa ürəklərin qışında...
Mənsə sərçə məhəbbətin
payızına, qışına inad,
Ürəyimə sıxıram...
Mən sərçə sevgisiyəm –
Payızda üzə çıxıram...

## Abzas

Sevgilim, toxunma mənə,
Yanaram,
 külüm qalar ovuclarında.
Yasaq olan hər şey bizim,
sevgimizin...
Yağış altda alışmağa çalışan
Ocaq kimiyik, sönəcəyik...
Yasaq olan hər şey bizim
Bu nə istək?
Bu nə sevgi?
Gücüm yetmir ürəyimi susdurmağa
Olmaz...
...yox, olmaz belə.
Dustağıyıq bir talenin.
Qəfəsim var
Sevgim yetməz o qəfəsi tərk etməyə.
Ağlım dözməz...
Başqa bədənlərdə ölsək,
başqa gecələrdə basdırsaq
ruhumuzu...
Səhərin işığında həbs etsək
Bizi,
Sevgimizi...
Sevsək,
Sevişsək...
Bir-birimizdə ölsək,
dirilsək...
Və günəş tərk etmədən,
Gecəni oğurlamış
Oğru aşiqlər kimi
Öz evimizə dönsək...



## İSA HƏSƏNOĞLU

(İsa Həsən oğlu Əliyev) –

*1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Culfa şəhərində doğulub. 1999-cu ildə Culfa şəhər 2 saylı orta məktəbin birinci sinfinə qədəm qoyub. Orta məktəbi 2010-cu ildə bitirib və həmin il BDU-nun "Komputer elmləri" ixtisası üzrə Tətbiqi riyaziyyat və kibernetika fakültəsinə daxil olub. Hahazırda BDU-nun II kurs magistrantıdır. 2012-ci ildə gün üzü görən "Könül dəryası" adlı şeirlər kitabı oxucularla ilk görüşüdür. 2014-cü ildə Azərbaycan Gənclər Fondunun maliyyələşdirdiyi, DGTYB tərəfindən həyata keçirilən Layihə çərçivəsində çıxan "Bölgələrdən səslər" kitabında şeirləri yer alıb. DGTYB-nin üzvüdür.*

### Mən səni görəndə...

Gözümə dəymirsən uzun zamandı,
Ölüb-qalmağından xəbər də yoxdu;
Bu həsrət bilmədim nə imtahandı..?
Könlüm sən gedəndən hər şeyə toxdu.

Zaman da qoşulub səninlə getdi,
Ruhum bədənimdən öncə qocaldı...
Sənsizlik canımı sardı... bitirdi,
İllər sevincimi əlimdən aldı...

Mən səni görəndə uşaqlaşardım
Tez-tez kövrələrdim, tez-tez gülərdim.
Var olan dünyadan uzaqlaşardım,
Səndə yaşayardım, səndə ölərdim...

Mən səni görəndə gözüm dolardı,
Üzünə davamlı baxa bilməzdim.
Əllərim titrərdi... nəsə olardı,
Qəlbimin sözündən çıxa bilməzdim.

**...**Mən səni görəndə... mən... mən olmazdım,
Özüm də bilmədən başqalaşardım...
Sənli saatlarda qəmgin olmazdım,
Hər kəsə, hər şeyə doğmalaşardım...

**...**Bir də qarşılaşsaq, uşaqlaşsaqmı?
Yenə bir kövrəlib, bir gülsəkmi bir?..
Var olan dünyadan uzaqlaşsaqmı,
Birlikdə yaşasaq,bir ölsəkmi... bir?!.

## Qəzəl

Yenə məhzundu könül sənsiz, ey afət, bu gecə,
Bürüyüb qəlb evimi qəmli təravət bu gecə.

Qulağımdan asılan incə, məlahətli səsin,
Gözlərimdən yuxumu eylədi qarət bu gecə.

Hər dikildikcə ötən xatirələr göz önümə,
Tükənir get-gedə canımda mətanət bu gecə.

Bəmbəyaz nuru ilə sanki döyür pəncərəmi,
Yoxluğundan eləyir Ay da şikayət bu gecə.

...İsa, həsrət ki səni səylə salır haldan hala,
Sabahı görməyinə yoxdu zəmanət bu gecə.



## LAMİYƏ İSAZADƏ

(Lamiyə Ədalət qızı İsayeva) –

*12 may 1989-cu ildə Gəncədə doğulub.*
*Gəncə Humanitar Kollecində oxuyub.*

### İnsan ömrü…

Çatlamış saxsıda suya bənzəyir,
inanın həyatı, həyatın özü...
İçsək də tükənir, heç içməsək də,
rüzgar kimi keçir, insanın ömrü.

Gün əgər ötürsə göz qırpımında,
niyə düşünmürük ömürdən gedir..?
Saatın əqrəbi daşa dönübsə,
yenə deyinirik: yaman ləng gedir...

Dəyərini bilək hər anımızın,
bir dəfə verilir bu həyat bizə...
Baxaq təbəssümlə bu dünyaya ki,
həyat özü gülsün qoy üzümüzə.

### Həyat

Həyat açılmayan pünhan bir sirrdir,
sabah nə olacaq hələ bilmirik...
Həyat həm gözəldir, həm də çirkindir,
Onu olduğutək qəbul etmirik...

Tutmaq olmur heç vaxt onun nəbzini,
doğrulur, dolanır, dəyişir həyat...
Demə, qaçaraqdı, demə, durğundu,
qarışır, barışır, öcəşir həyat...

Acımı? – acıdır, şirinmi? – şirin,
sabaha boylanıb, yaşamaq gərək..!
Nə küsüm, nə küssün, həyat həyatsa,
bir addım qalxmaqçün basamaq gərək.

Həyat imtahandır, bizsə tələbə,
eh, nə qədər sual cavabsız qalıb...
Elə yaşayaqki biz ömrümüzü,
deməyək, bugünüm savabsız qalıb...

E-hey, bu həyatda məna axtaran,
həyatın mənası yaşamaqdadır..!
Aldığın nəfəsçün şükür eylə hər an,
hər aldığın nəfəs yaşamaq dadır...



## MƏHƏMMƏD HACIYEV –

*2000-ci ildə Şəmkirdə doğulub. Əhməd Cavad adına tam orta məktəbin X sinfində oxuyur. Poeziyaya uşaq vaxtdan həvəsi olub. İlk şeirini 3-cü sinifdə oxuyanda yazıb. Şeirlərində məhəbbət, Turan dünyası əsas yer tutur.*

*Onun ədəbi mühitlə tanışlığında AYB-nin Gəncə bölməsi önəmli yer tutub.*

* * *

Fələk belə yazdı bəxtimi mənim,
Duymadım ilk eşqin sədaqətini.
Nə sən sevə bildin, nə mən sevildim,
Unutmaq olacaq ən çox çətini...

Özümdən gen düşdüm səni sevəndən,
Həsrət çoxaldıqca böyüdü eşq də...
Sevgi diləyirdim, umurdum səndən,
Neyləyək... o eşqi verə bilmədin...

Mən səni tanıyıb səni sevəndən,
Sinəmin üstündə tikan bitirdim.
Sən məndə əbədi xoşbəxtliyini,
Mən səndə sevdiyim qızı itirdim.

**Təsəlli**

Kim deyir ki, uzağıq,
Bizdən yaxın varmı kı?..
Sevgi dolu qucağıq
Ehh, nə Şəmkir, nə Bakı..?

Sevgimi Ay zənn elə,
Sevgin də ulduz olsun.
Gecələr də bax belə,
Ürəyimiz qovuşsun…

Şəmkirdə güllər açıb
Yetişir indi nar da…
Bu bəndi gizli yazdım
Sevgilim, ixtisarla…

Varlığın mənim üçün
Yerdə hava, göydə gün…
Həsrət hər gün boy atır
Vüsala çatmaq üçün…



## MƏRHƏMƏT ƏLİYEV –

*1980-ci ildə Şuşanın Şırlan kəndində doğulub. Azərbaycan Maliyyə İqtisad Kolleci və Azərbaycan Müəllimlər İnstitutunda təhsil alıb.*

* * *

Şütüyür sürətlə ömür qatarı,
sürətlə şütüyür ölümə sarı.
Azacıq sürətin azalda, barı,
mənzilə çatınca, arzuma çatım...

Mənzilə çatınca arzuma çatım,
sonra rahat-rahat məzarda yatım;
Bütün dərdlərimi ölümə satım,
sevincim yadigar qala dünyada...

Sevincim yadigar qala dünyada,
məni sevə-sevə salalar yada.
Məzarım üstünə yazılan ada,
sevən könüllərdə heykəl qoyula.

Sevən könüllərdə heykəl qoyula,
heç kəs unutmaya əhdi, ilqarı;
Onsuz da dünyanın yox etibarı,
Şütüyür sürətlə ömür qatarı...



**MÜCİRƏDDİN MÜBARİZOĞLU**
(Mücirəddin Mübariz oğlu Quluzadə) –

*2 dekabr 1990-cı ildə Beyləqanın Eyvazalılar kəndində doğulub. 1997-2008-ci illərdə Beyləqandakı Fəxrəddin Quliyev ad. Eyvazalılar kənd tam orta məktəbində təhsil alıb.*

## Unutmağa qoymayır

Xatirədir səndən mənə göz yaşı,
Sellər səni unutmağa qoymayır.
Könlü dərdli dolanıram çəməndə,
Çöllər səni unutmağa qoymayır.

Xoş günlərim yaddaşımdan silinir,
Ürəyimdə dərd yuvası salınır;
Sarı simdə qəm havası çalınır,
Tellər səni unutmağa qoymayır.

Yanağımdan bir keçilməz çay keçir,
Neçə-neçə qış ötüşür, yay keçir;
Günlər ötür, həftə keçir, ay keçir,
İllər səni unutmağa qoymayır...

Mücirəddin , ömür-gündü talanan,
Tək sən oldun eşq oduna qalanan...
Oxşayarkən, saçlarına dolanan,
Əllər səni unutmağa qoymayır...

## Silim göz yaşımı,
## anam görməsin

Gecə də, gündüz də hey ağlayıram,
silim, göz yaşımı anam görməsin.
Bir nakam sevgiyə yas saxlayıram,
silim göz yaşımı, anam görməsin.

Dən düşüb saçına, acı dərdi var,
bir qardaş həsrəti, bacı dərdi var;
Onsuz da anamın neçə dərdi var,
silim göz yaşımı, anam görməsin.

Atama söyləyər, biçindən qalar,
ləngiyər karvanı köçündən qalar;
Ayrılar işindən-gücündən qalar,
silim göz yaşımı, anam görməsin.

Fikri məndə qalar, südü çalınmaz,
təndiri soyuyar, lavaş salınmaz;
Sərgərdan dolanar, fikri bilinməz,
silim göz yaşımı, anam görməsin.

Geciksə, göz dikim yoluna yenə,
baxım pay gətirən əlinə yenə...
O alan köynəyin qoluna yenə,
silim göz yaşımı, anam görməsin.



## NOFƏL ÜMİD

(Nofəl Yurist oğlu Qədimov) –

*26 yanvar 1985-ci ildə Ağdərənin Umudlu kəndində doğulub. BSU Yaradıcılıq fakultəsinin tələbəsi, DGTYB-nin üzvüdür.*

### Vətən

Həsrətindən yandı bağrım,
çatmır sənə əlim, Vətən.
"Məni bağışla" deməyə,
susub, gəlmir dilim, Vətən.

Hey bölünüb, parçalanıb,
sinəsində od qalanıb;
Həm satılıb, həm talanıb,
hanı bütöv elim, Vətən..?

Gün gələ, keçim qarşına,
çıxım dağların qaşına;
Üzümü sürtüm daşına,
qucağında ölüm, Vətən.

### İstəmirəm

Ver qəlbini mənə, gülüm,
başqa fərman istəmirəm.
Ölsəm, qollarında ölüm,
molla, "Quran" istəmirəm.

Həsrətəm xoş sözlərinə,
sevinc gətir gözlərimə...
Qoy, baş qoyum dizlərinə,
başqa məkan istəmirəm.

Sönmüş eşqin tərmi, söylə,
solubsa bitərmi, söylə?
Bu sevgi itərmi, söylə? –
yanlış güman istəmirəm.

...Zədələnib könül simim,
əlacsızam, yox heç kimim.
Gəl, ol ömürlük həkimim,
özgə dərman istəmirəm...

### Rahat olasan

Hər zaman Tanrı qapısın
döyəsən rahat olasan.
Tanrının evində boyun
əyəsən rahat olasan.

Tapasan haqqın izini,
tutasan şərin üzünü;
Hər yerdə sözün düzünü
deyəsən, rahat olasan.

Bürüdükcə nahaq tini,
gözlər arayar mərdini;
Özün elə öz dərdini
yeyəsən rahat olasan...

Nə etsəm qəlbim ovunu?..
gözləməm ömrün sonunu...
Kəfən adlı ağ donunu,
geyəsən rahat olasan...

## QABİL ƏDALƏT

(Qabil Ədalət oğlu Şirinov) –



*Ağcəbədinin Boyat kəndində doğulub. Binəqədidəki 205 saylı orta məktəbi bitirib. 2011-ci ildə "Vətənə gedən yolda", 2012-ci ildə "Həqiqəti gözlərində görürəm" adlı kitabları işıq üzü görüb. 2012-ci ildə "Bayat" Ədəbi Birliyini yaradıb. "Bayat" və "Bitməz könlümüzün Vətən sevgisi" toplularının tərtibatçısıdır. Ukraynadakı Kirovaqrad Milli Texniki Universitetinin tələbəsi olan Qabil, DGTYB-nin və"Gənc Ədiblər Məktəbi"nin üzvüdür.*

* * *

Gecənin sənsizliyinə bürünüb...
Mahnı bəstələyirəm
Sükutun addım səslərini
Notlara duzub.
Həsrətimə toy tutacam
Bu gecə....
Divar kağızlarından qoparıb
Gül dəstələyirəm.
Xatirəndən qopub düşmüş
ümidlərlə
Qol qaldırıb oynayacam,
Həsrətimə toy tutacam
Bu gecə...
Arsızlığıma salıb
Kədərimi üstələyirəm...
Ətrin qalmış geyimlərini yuyub
suyunu
Yüz yüz vuracam
Həsrətimə toy tutacam bu gecə...

***Buz dağı***

Tərk etdin
isti bir yay gecəsində,
Qəlbimdə
buz bağladı, don vurdu,
qəfil gedişin.
Səhər açılar, günəş çıxar,
Qəlbimin
buzu əriyər
deyə,
fikirləşdim…
Dan yeri söküldü, günəş çıxdı,
Qızmar günəş daş-kəsəyi əritdi,
Asfalt əridi, torpağı yandırdı,
Amma
Günəş məni isitdikcə,
mən don atdım,
Qəlbim döndü buz dağına,
Qəlbimin buzu
əriмədi ki, əriмədi…
Çünki…
(qoy nöqtələr danışsın.)



## QOŞQAR QARAÇAYLI
(Qoşqar Şıxməmməd oğlu Səmədov) –

*1986-cı ildə Qəbələnin Dızaxlı kəndində doğulub. 2004-cü ildə Arzulla Rəhimov adına Dızaxlı kənd orta məktəbini bitirib. Məktəb illərindən şeir yazır. 2013-cü ildə "Sevgi nağılı" adlı ilk şeir kitabı işıq üzü görüb. DGTYB və Gənc Ədiblər Məktəbinin üzvüdür.*

### Yağış

Tənhalaşıb dərdə, qəmə batmayın,
Özünüzü oda, közə atmayın;
Bu yağan yağışa çətir tutmayın,
Bu yağan yağışda sevgi ətri var...

Dərbəndə, Təbrizə, Laçına yağsın,
Göyçəyə, Murova, Xaçına yağsın;
Açın, ovcunuzun içinə yağsın,
Bu yağan yağışda sevgi ətri var.

Qızıl gözəllikdi, dürr gözəllikdi,
Varsa gözəllikdə sirr, gözəllikdi...
Hər düşən damcısı bir gözəllikdi,
Bu yağan yağışda sevgi ətri var.

Nə hava dəyişsin, nə Günəş çıxsın,
Nə zaman tələssin, nə ömür axsın;
Yağsın səhərədək, kaş, elə yağsın...
Bu yağan yağışda sevgi ətri var.

* * *

Niyə yaşayıram, niyə ölmürəm...
Getmisən, mən çıxıb evə gəlmirəm,
Bilirsən, bilmirsən, hələ bilmirəm,
Ürəyim sən gedən qatarda qalıb...

Tükənib taqətim, sınıb qollarım,
Donub əl-ayağım, donub qollarım;
Dəmir yollarına dönüb qollarım,
Ürəyim sən gedən qatarda qalıb...

Axırdı göz yaşım, qurutdum  axır,
Özümü bir azca ovutdum axır,
Niyə ürəyimi unutdum axı..?
Ürəyim sən gedən qatarda qalıb...

Bu sevgi çıxacaq mənim axrıma,
Sevincim, ağrıma, qəmim, ağrıma...
Neyləyim gəlmədi dəli ağlıma,
Ürəyim sən gedən qatarda qalıb...

Düşmüşəm, qoy yanım, oddan çıxarma,
Olmuşam canında bir can çıxarma..!
Barı qayıdanda yaddan çıxarma,
Ürəyim sən gedən qatarda qalıb.

* * *

Xatirə dəftəri düşüb əlimə,
Bir vaxtlar xətrinə dəydiyim qızın,
Özündən xəbərsiz düşüb eşqinə,
Ürəkdən bəyənib, sevdiyim qızın.

Xatirə dəftəri düşüb əlimə,
Üşüyür əlimdə... donur əllərim...
Hanı o qız, hanı? – qaytar, İlahi,
Qaytar xatirələr damır əllərim...

Açıb oxumağa ürəyim gəlmir,
Qorxuram içindən o qız boylanar...
Danışmaz bircə söz, deməz bircə söz,
Baxar gözlərimə yalqız boylanar...

Əsər əl-ayağım, dolar gözlərim,
Düşərəm tilsimə, çıxa bilmərəm...
Saralmış məktublar düşər içindən,
Oturub baxaram yığa bilmərəm...

Baxaram eləcə dili lal kimi,
Baxaram gözləri kor kimi elə…
Neçə il keçmişə qaytarar məni,
Ruhumla, canımla, nəfəsim ilə...

Düşər xatirimə əzizləyərəm,
Axı sevgisini sevən unutmaz…
Yığıb nömrəsini zəng eləyərəm,
Heyf nömrəsinə daha zəng çatmaz...

Düşünə-düşünə elə qalaram,
Gözlərim yollarda, qulağım səsdə,
O qıza bir dəstə çiçək yığaram,
Aparıb düzərəm yolları üstə…

Sonra da dönərəm tənha evimə,
Tənha otağıma qayıdaram mən.
Oturub təzə bir şeir yazaram,
Sevgidən, sevgidən, yenə sevgidən...



## PƏRVANƏ NİZAMƏDDİN

(Pərvanə Nizaməddin qızı Orucova) –

*17 iyun 1985-ci ildə Qazaxın Kəmərli kəndində doğulub. IX sinifdə oxuyarkən "Çaylara nəğmələr anamdan keçib" adlı şeir kitabı işıq üzü görüb (2001); həmin kitaba görə Aslan Kəmərli adına ödülə layiq görülüb. 2003-cü ildə Azərbaycan Kooperasiya Universitetinə qəbul olub.*

*İkinci kitabı 2009-cu ildə "Gecələr xəyallar görüş yerimiz" adı ilə işıq üzü görüb. 2009 və 2014-cü ildə Kəmərli Bələdiyyəsinin üzvu seçilib. DGTYB-nin üzvüdür.*

### Ağ atlı

Yellərə qarış,
Sellərə qarış,
Güllərə qarış,
Ağ atlı..!

Yazda çiçəklər,
Güldə ləçəklər,
Dağda göyçəklər,
Ağ atlı..!

Günəş boylansın,
Yollar nurlansın,
Həyat yazlansın,
Ağ atlı..!

Çənlər çəkilsin,
Nəmlər çəkilsin,
Qəmlər çəkilsin,
Ağ atlı..!

***

Ürəyini verib, hara qaçmısan,
Sinəsi üşüyən, sözü üşüyən?..
Ürəyini verib, hara qaçmısan,
Gözünün yaşında gözü üşüyən?
Ürəyini verib, hara qaçmısan?..

Həyatda sevməyin özü çətindi,
Dilə gətirməyə sözü çətindi...
Sönmüş od-alovun közü çətindi,
Ürəyini verib, hara qaçmısan?..

Ərköyün uşaqtək atıb getmisən,
Bəlkə hər arzuna çatıb getmisən.
Ürəyinə ürək qatıb getmisən –
Ürəyini verib, hara qaçmısan?

Sənsiz gecələrin yuxusu yoxdu,
Çəməndə çiçəyin qoxusu yoxdu;
İndi ürəyin də qorxusu çoxdu –
Ürəyini verib, hara qaçmısan?..
...

## PƏRVİZ HALİ HÖVSANLI

(Pərviz Lətif oğlu Mehdiyev) –



*12 iyul 1991-ci ildə Bakıda doğulub. 1997-2008-ci illərdə orta təhsil alıb. BSU-nun Yaradıcılıq fakultəsinin tələbəsidir. Müxtəlif ədəbi məslislərdə ("Vahid", "Məclisi-Üns", "Məclisi-şüəra" və b.) iştirak edir.*

*Əruz, sərbəst və heca vəznində şeirlər yazır.*

### Qəzəl

Səbəb əfğanıma, ey gül, qəmi-hicran oldu,
Gəl, cigər parəsi, sənsiz cigərim qan oldu.

Ey könul Yusifim, hər məclisə qoydunsa qədəm,
Gördü xublar səni bu hüsn ilə heyran oldu.

Mənə ol gunki, Ay üzlüm, dedin: ayrılmalıyıq..! –
Bu xəbər sanki mənim qətlimə fərman oldu...

Könlüm hər qeyddən azad idi, gördükdə səni
Bənd olub zülfi-pərişanə pərişan oldu...

Bəxtimə ah əzəl katibi hicran yazdı,
Qəminə ruzi-əzəl qəlb evim ünvan oldu.

Sənədir Halinin ümmidi kərəm qıl mələkim,
Gəl, yetiş ki, bədənim ruhuma zindan oldu..!

* * *

Eşq əhlinin aləmdə könül həmdəmi qəmdir,
Kim qəm nədi dərk eyləsə, sanmaz qəmi qəmdir.

Ta eşqə düşəndən bəri keçməz günü qəmsiz,
Bu könlümün həm bayramı, həm matəmi qəmdir.

Qəm lütfi-Xudadır, bil onun qədrini, şükr et,
Kamilliyə vasil eləyən adəmi qəmdir...

Bica yerə bir özgə dəva gəzmə, təbibim,
Qəlbimdə olan dərdlərimin mərhəmi qəmdir.

Hali kimi, ey dil, özünü salma bəlayə,
Gör Halini, başdan-başa eşq aləmi qəmdir.

## RUSLAN DOST ƏLİ
(Ruslan Famil oğlu Əliyev) –



*1993-cü ildə Bərdənin Xanərəb kəndində doğulub. 2010-cu ildə Xanərəb kənd orta məktəbini bitirib. 2014-cü ildən DGTYB-nin üzvüdür. Hazırda Türküstandakı Ə.Yasəvi ad. Qazax-Türk Uluslararası Universitetində oxuyur.*

***

nəsə buralarda həyat başqadı,
hər gün darıxmağım nə gizli, nə sirr...
axı buralarda küləkdən qabaq
ürəklər adamın içində əsir...
yağışlar adamın içinə yağır,
küləklər evlərin çölünü tutmur...

onsuz da uşaqkən dəcəl olmuşam,
bu gecə aləmi qarışdırım, bax...
söküb şəhərdəki plakatları,
yerinə şəklini yapışdırım, bax..!
cinayətdirsə də, narahat olma,
onsuz da polislər dəlini tutmur...

götürüb ən gözəl şeirinnən vurur,
üstündə başqa bir ətir gəzdimir.
tutqun havalarda, qış aylarında,
nolsun özüylə çətir gəzdirmir,
açır ürəyini şeir sevən qız,
bu yağan yağışlar Əlini tutmur...

***

Topa-topa bulud gedir rəhmətə,
səs-küy salır, sükút gedir rəhmətə.
hər gün biraz ümid gedir rəhmətə,
hər gün biraz Günəş batır, can çıxır...

varam ki, mən? – bilmirsən ki,
yoxam ta,
çətin bir də ortalığa çıxam ta...
haçan yatsam səni görrəm yuxumda,
yuxularım yuxularda çin çıxır...

ha sökülmüş günlərimi yamadım,
yazammadım yenə ömrün tam adın...
bu tərəfdə yenə ümid şamadı,
o tərəfdə görən yenə gün çıxır?..

kirpiklərim səhər çağı gül şehi,
tərsinədi, üstündədi Gül şehin...
mən sevəndə unuduram hər şeyi
adım nədi? – lap yadımnan
din çıxır..!

sözdən öncə ucalığım yoxuydu,
ac deyildim, heç aclığım yoxuydu;
mənim dərzi bacarığım yoxuydu,
sözlərimnən ayrılığa don çıxır...

xəyal yığıb, bir ev-eşik edirəm,
tüfəng tutub, deşik-deşik edirəm...
ürəyimi kəsik-kəsik edirəm,
nə vaxt şeir yazıramsa, qan çıxır...



## RUSLAN NADİROĞLU

(Ruslan Nadir oğlu Ağazadə) –

*1986 cı il mayın 11-də Cəlilabad rayonunda dünyaya gəlib. 1993-2004-cü illərdə Sabir Rəzzaqov adına orta məktəbdə təhsil alıb.*

*Ailəlidir 2 övladı var.*

### Gəl, ayrılaq

Gəl, ayrılaq bu gecə,
bitirək bu oyunu…
Səndə yaxşı bilirsən,
yoxdu bu eşqin sonu.

Heç sevgi də deyil bu,
ötəri bir həvəsdi…
Yetərincə günaha,
batmışıq, daha bəsdi.

Zülmət gecələr kimi,
gözümüzdə qaralıb.
Günah hörümçək kimi,
bizi toruna salıb…

Bu ki, məhəbbət deyil,
bu şeytana "pənah"dı…
Cəhənnəm alovuyla,
göyə yuksələn ahdı..!

Sən özgənin yarısan,
məndə özgə bir adam.
Bağışla, getməliyəm,
getməsəm də… bir yadam.

*18.05.2015*

### Elə sev ki qadını…

Elə sev ki qadını,
Sevgiyə kəm baxmasın.
Sənlə sevsin dünyanı,
Dünyadan usanmasın.

Elə sev ki qadını,
Çöhrəsində gül açsın.
Eşq adı eşidəndə,
Bulud kimi dolmasın.

Elə sev ki qadını,
Səndə özünü tapsın.
Səni sənə göstərsin ,
Səndəki sənə çatsın.

Elə sev ki qadını,
Sevgiyə yad olmasın.
Qoy səndə doğmalaşsın
Səni özgə sanmasın.

Elə sev ki qadını,
Səni sənə qaytarsın.

*17.05.2015*

## Gecə

Səssiz gecə… musiqi,
Üz-üz dayanmışıq.
Gecənin zülmətini,
Şamla aydınlatmışıq.

Pərvanələr dolanır,
Bu şamın ətrafında.
Bəzən atəş görünür,
Pərvanə qanadında.

Duyğular dilə gəlir,
Göz-gözə kilitlənir.
Çat vermiş dodaqlarım,
Dodağında nəmlənir.

Saçların sinəm üstə,
Dağılıb, səpələnib.
Dodağının boyası,
Öpüşündə gizlənib.

Sən sevgi şərabısan,
Mənsə sərxoş şairəm;
Bir əlimdə piyalə,
Digər əlimdə qələm...
Gecənin qaranlığı,
mürəkkəb qələmimdə.
Yazdım ki, bu gecəni
yaşasın şeirimdə...

*05.02.2014*



## SAMİRƏ SƏMA

(Samirə Camal qızı Bayramova) –

*1984-cü ildə Gəncə şəhərində doğulub. 1991-2001-ci illərdə Əhməd Cavad adına 2 saylı orta məktəbdə orta, 2003-2008-ci illərdə Azərbaycan Texnologiya Universitetində ali təhsil alıb. AYB-nin üzvüdür. Şeirləri bir sıra toplularda dərc edilib.*

### *Bu gün mənə sən telefon açanda...*

Duman kimi həsrət qəmi çəkildi,
Üz-gözümə işıq seli töküldü,
Könlüm güldü, zülmət nuru büküldü,
Bu gün mənə sən telefon açanda…

“Salam”larım, “sağ ol”lara qarışdı,
Kəlmələrim noğullara qarışdı.
Gerçəkliyim nağıllara qarışdı,
Bün gün mənə sən telefon açanda…

Ürəyimdə bir eşq odu qalandı,
Arzularım arzulara calandı,
Günəş enib başım üstə dolandı,
Bu gün mənə sən telefon açanda…

Dəstək mənim əllərimdə titrədi,
Soyumuşdu, qaynar təbim kükrədi,
Sevincimdən ayaqlarım büdrədi,
Bu gün mənə sən telefon açanda…

Mən sözümü… mən özümü bilmədim.
Bir an, gecə-gündüzümü bilmədim,
Tanrı verən nemətdimi, bilmədim.
Bu gün mənə sən telefon açanda.



## SƏRVƏR KAMRANLI

(Sərvər Rəhman oğlu Kamranlı) –

*12.03.1987-ci ildə Yardımlının Dağüzü kəndində doğulub. Dövri mətbuatda şeirləri və hekayələri ilə çıxış edir. Bir neçə kitabın həmmüəllifdir. DGTYB-nin, Gənc Ədiblər məktəbinin üzvü, "Bizim.info" saytının redaktorudur.*

*Hazırda BSU-nun Yaradıcılıq fakultəsində təhsil alır.*

### Doğulandan sonra...

…Öncə dörd əllə yapışarsan yerdən,
Sonra yıxıla-dura qalxarsan...
Qalxarsan, gözün yerlə doymaz.
ayaq açarsan yerə,
əl açarsan göylərə…
Ayaqlarınla yerdən, əllərinlə göydən tutmaq istərsən…
İstərsən... Eşqə düşərsən.
Gah yerdəkiləri sevərsən, gah göydəkini…
Sevərsən tapdadığın torpağı...
dünyanın belində fırlanarsan bir oxun ətrafında.
Günəşə çatmaq üçün hərəkətin hız alar,
diləyin qanad açsa,
dəyişər məsafələr,
yorulmazsan...
tərk etmək istərsən dünyanın tərkini,
fırlana-fırlana dövr eyləyərsən...
canlı, cansız – hər nə var, fırlanır, zatən,
düşünüb, təsəlli taparsan, təntiməzsən...
…Nəhayət, gün gələr –
ansızın, biri alar səni dünyanın əlindən...
Diləklər gerçək olar,
o vaxt
sevincdən bölünərsən –
özün yerdə qalarsa, ruhun çıxar göylərə...
yerlər özünün olar, göylər ruhunun...

## Nə ola, bu dünya bir yuxu ola...

Yaman usanmışam, tənbəl olmuşam,
Ta heç kim tanımır bu gənc qoçağı.
Yuxuma bir gözəl girəndən bəri,
Yuxudan qalxıram günorta çağı.

Yuxuda görürəm bizdən danışır,
Daha gizli-gizli Günəş də, Ay da.
Bir dəli adamın "kənd" ürəyində,
Sevgi yaşayırmış bir ölkə boyda...

Yerlər də asıla göyün üzündən,
Göylərin qoynunda yuxusu gələ.
Nə ola bu dünya bir yuxu ola,
Bizim sevgimiz də yuxuda ölə...

## Rahat olasan

Durasan ayağa... özün-özünə,
Bir əlac qılasan, rahat olasan.
Yazanın əlindən... qanı qaralmış,
Qələmin alasan, rahat olasan.

Artırıb sevincin, dəmin sayını,
Verəsən kədərin, qəmin payını.
Tapasan dərdlərin şah sarayını,
Taxtından salasan, rahat olasan.

Əzab qan ağlaya, gözlərin sıxa...
Ömürdən getməyə yaman darıxa...
Kədər qız cildində qarşına çıxa,
Saçını yolasan, rahat olasan...

Yerdə gün atılır ömürdən hələ...
Göylərin adama yazığı gələ...
Asa yaxasından... yağmasan belə,
Buludtək dolasan, rahat olasan.



## SƏXAVƏT KƏLBƏCƏRLİ
**(**Səxavət Ellaz oğlu Süleymanov**) –**

*1985-ci ildə Kəlbəcərin Zal kəndində doğulub. Gəncə Humanitar Kollecini bitirib. "Mənim ürəyimi sən yaşadırsan"adlı şeirlər kitabı gün üzü görüb*

### Önündə, KƏLBƏCƏR yazıla, gülüm

Ötə bu günlərdən on il, on beş il,
Həyat axarında, yerbəyerində.
Haçansa yığışaq söz işığına,
Görüşək Bakıda günün birində.

Ürəkdən dərdləşək, danışaq, gülək,
Bir az da kövrələk, alışaq sönək...
Geriyə qaytarıb ömürün çarxını,
Səni incitdiyim günlərə dönək...

Deyəm ki, düşünmə unutdum səni,
Hər zaman qəlbimdə səni anmışam.
Məhəbbət gəncliyi dəliləşdirir,
Bir az yaşa dolub ağllanmışam...

Deyəm ki, gec oldu, gəl, sağollaşaq,
Dil aça üzündə, gözündə kədər...
Deyəsən, gedəndə zəng elə mənə,
Səni otürəcəm vağzala qədər...

Nisgil... ayrılığın məkanı vağzal...
Sənə zəng eləyəm səhər onbirdə.
Deyəm, telfonda, gəl, sağollaşaq –
Sən niyə əziyyət çəkirsən bir də...

Yox!.. deyib, gələsən, bir az ötməmiş,
Dost kimi boynuma dolana qollar...
Kədərdən titirəyən həzin səsinlə
Mənə söyləyəsən: uğurlu yollar...

Mənə dünya boyda bir zənbil verib,
Götürəm istini, buz əllərimlə...
Deyəsən, bax, acsan, yolda yeyərsən,
Özüm bişirmişəm, öz əllərimlə...

Baxışlar insanın qəlbin boşaldır,
Ürəklər ovunur söz ilə, Gülüm.
Minəm bir maşına, sənə əl edəm,
Önündə Kəlbəcər yazıla, Gulum...

### Mənim

Göy çəməndə yaz şehinə
Bələn, arzularım mənim.
Tanrı sizi kövrəltməsin
Gülən arzularım mənim.

Yenə çatıb qəm qaşını
Atmadınız qəm daşını...
Xəyalıyla qəm yaşını
Silən arzularım mənim.

Ax, can alır göz qaşıyla
Bacarmıram mən naşıyla.
Qismətini sirdaşıyla
Bölən arzularım mənim.

Ruhum zərgər, ömür ləldi,
Ayrlıqlar bağrım dəldi...
Məzarınız nə gözəldi
Ölən arzularım mənim...
*11.05.2015*

## Torpaqlara

Çoxdan ölə bilərdim
Dözürəm, torpaqlara...
Torpağa dönmək üçün
Hazıram torpaqlara...

Səslənirəm ud kimi,
Dayanmaram büt kimi...
Ya Tanrı, şəhid kimi,
nəzirəm torpaqlara...

Bu açılan danımla,
Varam hər bir anımla.
Son şeirimi, qanımla
Yazıram torpaqlara..!

## Gərək vulkan püskürsün
## Azərbaycan şairi

Siz, Vətən şeirlərini, söylə, necə yazdınız?
Qarabağı heç zaman unutmayın, şairlər!..
Ruh dəyişdi, bir anlıq fikirdənmi azdınız?
Qarabağı heç zaman unutmayın, şairlər..!

Gecələri düşünün, açılanda dan, yazın,
Əbədi coşa gəlsin damarlarda qan, yazın.
Yazın o Kəlbəcərdən,yazın Şuşadan, yazın,
Qarabağı heç zaman unutmayın şairlər..!

Ürəyimdə neçə dərd boya çatdı, irildi,
Sağlarım ölü kimi,ölülərim dirildi...
Qarabağ qan ağlayır elsiz iyirmi bir ildi,
Qarabağı heç zaman unutmayın şairlər..!

Birin yazıb durmayın, yazın, beşindən yazın,
Rus ilə ermәninin qanlı işindən yazın;
Xocalıda kəsilən gəlin döşündən yazın,
Qarabağı heç zaman unutmayın şairlər..!

Yaralı məmləkətin, söyləsin qan! Şairi,
Vətən! Vətən! deməli, verəndə can, şairi.
Gərək vulkan püskürsün Azərbaycan şairi!
Qarabağı heç zaman unutmayın şairlər!..



## ŞƏFA NUR

(Şəfa Söhbət qızı Piriyeva) –

*17 fevral 1991-ci ildə Masallıda doğulub. Orta təhsilini Masallıdakı Qəhrəman İsmayılov adına orta məktəbində alıb. İxtisasca tibb bacısıdır. Hazırda BSU-nun Yaradıcılıq fakultəsinin dinləyicisidir. İngilis, rus, ərəb dillərini bilir.*

### Həyat

İndi vaxtın keçdiyindən
Xoşbəxtliyin damla-damla əriyib getdiyindən
xəbərsizəm, doğrusu...
Zaman səssizcə alıb aparar hər şeyi...
İşıqlı görünən dünya qaranlığın gözündən keçir.
Səssiz şütüyən zamanın içində sürət
damla-damla əridər ömür şamını...
Bu sənin qismətindir,
bu sənin tale yolun...
Bu yollar uzundur, bu yollsr qısa...
Uzunu da həyatdır, qısası da...
Bəzən bir yanlışın bütün doğruları sildiyi bir səhnədir həyat...
Səhnə demişkən, orda rolunla, fərqli obrazlara dönə bilirsən...
ancaq həyat... həyat başqadır...
Həyat - yaşamadığımız "bəlkə?"lər, yaşadığımız "kaşki!"lər, dilimizin dibindəki "nə isə..."lərdir, bəlkə də...
...Piyada kimi şah əsarətində qaldığın
bir şahmat oyunudur həyat!
Cavab bəndləri olan,
lakin içində yalnız bir bəndi doğru çıxan
"sınaq sualı"dır həyat...
Ağlayaraq beşiyə qoyulub, gözüyumulu tabutda getdiyin ikiqatlı binanın

"0"cı qatıdır həyat...
Əlini karta uzatdığın andan ya bütün dünyanı dəyişdirdiyin,
ya da bütün həyatını uduzduğun bir qumardır həyat...
Pulla dəyər biçilməyən
Düşüncə, Dostluq, Azadlıq, Sevgi gözəlliyidir həyat...
Kimsənin yardımına ehtiyacın olmadan
zirvəyə dırmanmaqdır əslində, həyat...
...İlin bütün günlərində Yuxu, Ümid, Gülüş hədiyyəsi olan
"Qar adamı"dır Həyat...
...Yeddiboya xəyalımızla sabaha səsləyən
göyqurşağıdır Həyat...
Əslində, rolu əlimizdə olan yeganə
"Yaşam nəqliyyatı"dır Həyat...
Bu sənin qismətindir,
Bu sənin tale yolundur..
...Yollar uzun da olsa, qısa da,
hər iki yolun bir adı var – HƏYAT..!

## İnsanoğlu axtarışda

Əslində,
bəlkə də, insanı ac qoyan, yaşamağı mümkünkən,
yaşamadığı xoşbəxt anlardır... və...
beləcə, kimsə görməsin deyə,
gündüzləri gülüb, gecələri ağlayar insan...
Bəlkə də, yanlış insanlar üzündən
qırılan xəyallardır onu ağladan.
Necə deyib müdrik? –
sözlərinə diqqət etməli insan –
gün gələr düşüncələrinə çevrilər o sözlər,
düşüncələrinə diqqət etməli insan –
gün gələr də, duyğularına çevrilə bilər,
oysa, insan duyğularına da diqqət etməli! –
bir gün gəlib, davranışa çevrilər duyğu dediyin...
beləcə, onlar da alışqanlığa çevrilə bilər,
alışqanlıqlar – dəyərlərə,

dəyrlər – xarakterə çevrilə bilər..!
Xarakter! – bu artıq Həyatla baş-başa qoyar sizi...
İnsanoğlu axtarır:
Bugünündə Dünəni...
...Dünən, Bugün, Sabah...
Heç nə, heç yerdə, hüç cür qane qılmır onu...
Sanki hər şey köhnədir
axtaran insana...
köhnəlik – bu ancaq xatirədir...
...axtarır insanoğlu... insanoğlu axtarır...
Musiqi dinləyir, şeirlər yazır –
yazır, öz içini azaltmaq üçün...
...axtarır insanoğlu...
Axtarmaq mübarəkdir..!



## ŞƏFA VƏLİ

(Şəfa Elxan qızı Vəliyeva) –

*15 iyul 1988-ci ildə Göyçə mahalının Dərə kəndində doğulub. Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialının "İbtidai təhsilin metodikası və pedaqogikası" fakultəsini 2009-cu ildə bitirib. Kiçik həcmli öykülərdən oluşan ilk kitabı "Ümiddən olan qurbanlar" adı ilə 2010-cu ildə işıq üzü görüb. DGTYB-nin üzvüdür. Azərbaycan Prezidenti Təqaüd Fondunun təqaüdçüsüdür.*

***

*İnanma hər deyilənə,*
*Hələ sənə nə yazmışam?*
(İntiqam Yaşar)

Mənim sənə yazdıqlarım
Bu yay torpağı oxşadı...
Döndü üzü qiblə sarı
Tərsa eşqimə baxmadı...

Eşq – naməhrəm... eşq – səd günah...
Eşq – beş ləçəkli zanbaqmı?
Eşq – kitabsız bir səcdəgah
Eşqli – məbəd Şamxatımı*?

Elə asan öldürürlər
Eşq qoxuyan ümidləri...
Tanrı qıymazdı belə...
Ayırmazdı sevənləri...

Vallah, bizi ayıranlar
Tanrısını tanımadı...
Yoxsa, eşqə tapınanlar
Tanrısından yarımadı?!.

---

** Şamxatı – "GilQamış"da obraz*

***

Hər səs gələn tərəfin
yolçusu sevilməz ki...
Payız boyda qəhərin
sarısı silinməz ki...

Saçlarını yolmağa
Başlayıbdı ağaclar...
Bu mövsüm Xan bağında
Oturmağa ürək var?..

Yaxşı ki, yolun düşmür
Bu aralar Gəncəyə...
Baxışımdan üşüyüb
Küsərsən gəlməyinə...

Gərək mən də tez qaçım...
Bakı? Qazax?.. – ya səbr!
Durum qapını açım:
- Bu sənsən, oktyabr?..

***

Ayrılığı tanımırdın,
Ayrıldıq... Xoşun gəldimi?
Bədbəxtliyin məni saydın,
Xoşbəxtlik naxışın gəldimi?

Öz təkliyinin filmində,
Baş rolda məni çəkəsən...
Hönkürəsən dəlilərtək,
Bir azca mənə çəkəsən...

Ürəyin dərddən hayqıra,
Məni günahkar sayasan...
Ölən gedəm, ayrılıqdan
Bir şeir də sən yazasan...

## TALEH ODOĞLU

(Taleh Rafiq oğlu Haqverdiyev) -



*3 noyabr 1991-ci ildə Naxçıvan şəhərində doğulub. Naxçıvan Dövlət Universitetinin məzunudur. Hazırda həmin universitetdə İnformasiya Texnologiyaları və Telekommunikasiya Sistemləri ixitsası üzrə magistrantdır.*

*Ədəbi yaradıcılığıa 15 yaşından başlayan Taleh ilk kitabını nəşrə hazırlayır*

### Sarı gəlin

Kədəri ağladıb, qəmə gülmüsən,
İndi gül bağında solan gülmüsən?
Səsin yoxdu, bəlkə çoxdan ölmüsən?
Nəğmən susdu tarda, ay Sarı gəlin.

Könüllər yandırıb uzağa getdin,
Şirin nağıl idin, zamansız bitdin...
Ağdamda, Şuşada, Laçında itdin,
De, indi hardasan, ay Sarı gəlin?..

Gül üzünə xain gözlə baxdılar,
Atəşə atdılar, oda yaxdılar,
Düşmənlər adına sahib çıxdılar,
Qaldın ahu-zarda, ay Sarı gəlin.

Saraldın adıntək ağ duyğularda,
Biz gerçək həyatda, sən yuxularda...
Batdı göz yaşların dərin sularda,
Yağışsan baharda, ay Sarı gəlin.

Hər zaman bizimdin, bizim olmusan,
Tarixdən silinməz izim olmusan;
Bahar təravətli sözüm olmusan,
Soyuq qışda, qarda, ay Sarı gəlin.

Soldu tellərində gül dəstə-dəstə,
Qara bulud durdu başının üstə;
Dildə əzbər oldu bir yeni bəstə,
Adın mahnılarda, ay Sarı gəlin...



## TƏRANƏ ABBAS

(Təranə Rizvan qızı Abbasova) –

*2 fevral 1993-cü ildə doğulub. 2009-cu ildə Gəncə şəhər Nizami Aydın adına 18 saylı orta məktəbdə təhsilini başa vurub, 2010-2014-cü illərdə Gəncə Dövlət Universitetində Musiqi müəllimliyi fakultəsində ali təhsil alıb. Aldığı ixtisasla yanaşı şair və rəssam kimliyi ilə tanınır.*

### Yaşlı qadın

Yağışla Gün rəqs eləyən bir yaz günüydü…
Oturmuşdu skamyada yaşlı bir qadın,
Sanki qəm-kədərdi həyatdan payı…
Baxırdı sağına, baxırdı sola,
Bəlkə düşməyirdi kimsə yadına?
Bəlkə doğuluşdan tək olmuşdu o,
Bəlkə yaşamağı unutmuşdu o?
Qocalmış əlləri, bükülmüş beli,
Tutulmuş ayağı, görmür gözləri...
Sevgi istəyirdi çarpan ürəyi,
Baxma, gözəlliyni almışdı illər...
Övlad doğmamışdı, ana deyildi,
…Qəlbini ağrıdan keçmişi vardı,
Onu tez qocaldan sevgisi vardı…
Çatmamışdı arzusuna,
  yetməmişdi kamına,
Amma, yenə gülürdü həyatın axarına…
Gülüb də, heyf alırdı
 həyatdan, xəyalında…
Həyat ondan aldığını almışdı,
O həyatdan kamını almamışdı…
Oynadığı oyunda tək qalmışdı…
Qəlbimi çox ağrıdı bu mənzərədən,

Gözümü yumdum da, sızladı qəlbim...
Açanda gözümü, artıq o, yoxdu…
Hara qeyb olmuşdu o yaşlı qadın?
Sonra anladım ki, o yaşlı qadın,
elə mən özüməm, elə mən özüm…
Deyirəm, bəlkə də, özüm bilmədən
yaşayıb ölmüşəm… ölüb, gəlmişəm…

## Bulud olmaq istəyirəm

Bulud olmaq istəyirəm,
göylərdə uçub dağılmaq…
Hərdən dolub ağlamaq…
Bəzən yox olmaq,
bəzən var olmaq…
Hərdən pambıq kimi yumşaq, ağappaq,
hərdən şimşək kimi hirsli, qəzəbli…
Bulud olmaq istəyirəm…
Yüksəklərdə olmaq…
Səmalarda süzmək…
Hərdən Ay işığında görünən,
hərdən təkliyə çəkilib gizlənən…
Bulud olmaq istəyirəm…



## TURANƏ TURAN
(Turanə Vaqif qızı Nəsibova) –

*11 noyabr 1991-ci ildə Tovuzun Qovlar şəhərində doğulub. Ali təhsilini Gəncə Dövlət Universitetində alıb. Tovuzda fəaliyyət göstərən Aşıq Hüseyn Bozalqanlı adına "Varislər" Ədəbi Birliyinin üzvüdür.*

### Xoşbəxtlik qatarı

Küsgün dostum, üzülmə,
Gəl, birlikdə gözləyək
Xoşbəxtlik qatarını.
Səmti bizə düşməyən
İllərin qaçağını...
Bir vaxtlar uşaq ikən
Minmişəm o qatara.
Atamla birdim deyə -
İstəmirdim yol bitə.
Yolumuz qısa oldu,
Atam çox tezcə düşdü
Həyatın qatarından…
Xoşbəxtlik məni qovdu
Uzaqlaşdı yanımdan.
Bax, o gündən görmədim
Bu dünyada bir ağ gün.
Heç özüm də bilmədim
Necə keçir ömür-gün.
İkimiz də, gəlməyən
Xoşbəxtlik gözləyirik.
İştahımız böyükdü
Nə az şey istəyirik.
Onun gəlməyi çətin–

Biz nəsə etməliyik.
Bəlkə də, tapmaq üçün
Dünyadan köçməliyik.
Bu dünyada gözlədim
Heç gəlmədi qatarım.
Köçürəm o dünyaya
Bəlkə orada tapdım.
Xoşbəxtlik qatarımın
Məkanı bəlli daha,
Getmək üçün Əcəldən
Bilet aldım sabaha…

## Bu dünyada heçmi sevgi yoxdu, dost?

Kədər olub gündüzüm də, gecəm də,
Son qoyulub ürəyimdə sevincə.
Ümid ölüb, qəlb qırılıb beləcə,
Sevib, xoşbəxt olan bəndə yoxmu, dost?
Bu dünyada heçmi sevgi yoxdu, dost?

Bədənimdən ruhum uçar vaxtı çatanda,
Qəlbimi qəm oyar, dərd çoxalanda;
Göz yaşım sel olar, ürək sınanda,
Mənim kimi kimdə əzab çoxdu, dost?
Bu dünyada heçmi sevgi yoxdu, dost?

Qəm-kədərdi ürəyimin sakini
Çoxmu gördü mənə bir az sevgini?
Axı, ona vermiş idim qəlbimi,
O, heç sayıb, tutub yerə vurdu, dost.
Bu dünyada heçmi sevgi yoxdu, dost?

Vəfasız dünya tək çoxdu vəfasız,
Elə bir eşq varmı olsun cəfasız?
Turanə Turanı sorğu-sualsız,
Diriykən məzara qoydu o, ey dost..!
Bu dünyada heçmi sevgi yoxdu, dost?



## ÜLKƏR PİRİ

(Ülkər Söhbət qızı Piriyeva) –

*24 avqust 1988-ci ildə Masallının Ağakişibəyli kəndində doğulub. Azərbaycan Universitetinin Xarici dillər fakultəsini bitirib. Hazırda BSU-nun Yaradıcılıq fakultəsində təhsil alır. Şeir, esse, hekayələr yazır, eyni zamanda, bədii qiraətçi kimi tanınır.*

*Bədii qiraət üzrə yarışmalarda dəfələrlə respublika üzrə I dərəcəli diploma layiq görülüb. DGTYB-nin üzvüdür. "Zamana Baxış" adlı CD-albomu işıq üzü görüb.*

### Ürəyimə yağış yağır bu gecə...

Gözlərimdən baxışların tökülür,
Od nəfəsim sənlə dara çəkilir...
Varlığımda eşq sarayı tikilir,
Bir xəbərsiz eşq yaranır gizlicə,
Ürəyimə yağış yağır bu gecə...

Nə, bəxt sənə "gəl, göz yaşım ol", deyir,
nə "göydən ələnən daşım ol", deyir;
Bir ürəyin, gəl, sirdaşı ol, deyir.
Diləkləri ötub gedir gün necə..?
Ürəyimə yağış yağır bu gecə...

Baxışların gözlərimə dolanda,
Ta qayıtma... sığın ona, qal onda...
Adın qəlbdə, taleyinsə əlində,
Sənsiz günüm nə yaşana, nə keçə,
Ürəyimə yağış yağır bu gecə...

## VASİF ZÖHRABOĞLU

(Vasif Zöhrab oğlu Mustafayev) –



*1986-cı ildə Şəki şəhərində doğulub. Orta məktəbi bitirdikdən sonra 2004-2006-cı illərdə ordu sıralarında xidmət edib. Şeirləri müxtəlif mətbuat orqanlarında, ədəbi portallarda, toplularda yayımlanır. İlk kitabı 2015-ci ildə işıq üzü görüb.*

*2012-ci ildən DGTYB üzvüdür.*

***

Sən məni sevmisənsə,
Ayrılıqdan payın var.
Darıxsa,n baş qoymağa,
Sinəmdə çarpayın var.

Sən məni sevmisənsə,
Məndən uzaqsan demək.
Əllərin üşüyürsə,
Gündən uzaqsan demək.

Sən məni sevmisənsə,
Qayıt uzaqlarla gəl.
Qatarlar ayrılıqdı,
Gəl, sən uçaqlarla gəl.

Sən məni sevmisənsə:
Darıxmağın qadını,
Bu dəlinin qadını,
Bu axmağın qadını.

Sən məni sevmisənsə...
Yox, daha məni sevmə...

## Gəl...

Divlər uydururam, nağıl gəzirəm,
Saat əqrəbində zaman daş olsun...
Könlünü almağa bir yol gəzirəm,
Mən necə darıxım sənə xoş olsun..?

Vecsiz adamların soyuq salamı...
Bezmişəm şəhərin bu səs-küyündən.
Göylər də qarğışa tutur adamı,
Məktublar tökülür quş dimdiyindən…

Daha darıxdırma şüşədə canı,
Qurtar bu tilsimdən sən məni, gözəl.
Bütün nağılların baş qəhramanı,
Sonunda qayıdır, sən də qayıt, gəl...

Gör necə kiriyib göz-qaşı, əli,
Bu əsər önündə necə məst oldum…
Bu heykəl gözəli, bu daşgözəli,
Sevib tapınmaqdan bütpərəst oldum.

Daşlara tapındım, daş ömrü sürdüm,
Mənim tək daşlara inanan varmış.
Usta əlləriylə yonuldu, gördüm
Hər daşın içində bir insan varmış..

Sənin də daş olmaq imiş taleyin,
Məni unutmağa yaddaşın yoxdu.
Yaşasam,
sevməyə
vuran ürəyin,
Ölsəm, ağlamağa gözyaşın yoxdu…

Daha tapındırma məni özünə,
Daha daş gözlərin mənə baxmasın…
İlahi, rəhm eylə, bu yer üzünə,
Analar qız doğsun, heykəl doğmasın..!

## VÜSAL YURDOĞLU

(Vüsal Teymur oğlu Dadaşov) –



*11 iyul 1988-ci ildə Xaçmaz şəhərində doğulub. Xaçmaz şəhər 1 saylı tam orta məktəbində (1995-2006) orta təhsil alıb. 2006-2008-ci illərdə həqiqi hərbi xidmətdə olub. Hazırda Daxili Qoşunlarda (müddətdən artıq) xidmət edir.*

*BSU Yaradıcılıq fakultəsinin I kurs dinləyicisidir.*

### Nədir.?!

Fəsillərmi üzdə gülən, ağlayan,
Bahar nədir, payız nədir, qış nədir?..
Nədir bizi yarı yolda saxlayan,
Əcəl nədir, kədər nədir, yas nədir?

Alacaqdır həyatından halalın,
Verəcəkdir əvəzinə zavalın.
Sevə-sevə uzaq qılar vüsalın,
Tale nədir, qismət nədir, bəxt nədir?!

Ərimədə şam yerinə ürəklər,
Uzaq qaçır ehtiyaclar, gərəklər...
Yavaş-yavaş çöküb gedir dirəklər,
Arxa nədir, dayaq nədir, dik nədir?!

Vüsal neydir, ah çəkəndən bu günə,
Öz əliylə yazı yazıb özünə.
Giriftarmış, tikan batıb dizinə,
Tanımışdir, sərhəd nədir, sədd nədir...



## XƏYALƏ SEVİL

(Xəyalə Vaqif qızı Abbasova) –

*18 mart 1985-ci ildə doğulub. Azərbaycan Müəllimlər İnstitunun «Pedaqogika və metodika « fakultəsini bitirib. "Səni sevdiyimi bilməyəcəksən", "Bəxtimə çıxan adam", "Daş" şeir kitablarının müəllifidir. Ailəlidir, iki övladı var.*

### Başımın üstündə ağlayan payız

Başımın üstündə ağlayan payız,
yolların vəfası yoxdu,
saxlamaz göz yaşını.
Gedənimin arxasınca
elə töküb qarğışını,
geri gəlmir.
Gözlərimdə su qalmadı,
başımdakı daşı atdım,
daşım da diri gəlmir...

Başımın üstündə ağlayan payız,
Ağaclar da ağlayır,
yarpaq-yarpaq,
sarı-sarı...
Mən bu qarı yolların
inadın qıra bilmədim,
Yoruldum, yora bilmədim...
Ürəyimi atanın
arxasınca ürək atdım.
Gözlərim qara buluddu,
heç kim bilmir...
Heç kim bilmir...
payızı mən yaratdım.

### Gözlərim təzə yol çəkir

Həsrətin ağacdı sənin,
Yanağımda bar veribdi.
Tanrı mənim əllərimi
Göz yaşıma gor veribdi...

Ürəyimi bədənimə
Bağlayan ruh bağı yoxdu.
Canımdan çıxıb qaçardı,
Yaxşı ki, ayağı yoxdu...

…Ağaclar da üstümüzə
Saçlarını yolub tökür.
Qayıt, sənin dönüşünə
Gözlərim təzə yol çəkir...

## YUSİF NAZİM ƏRƏBSOY

*(Yusif Ağaəhməd oğlu Məmmədov) –*



*10 oktyabr 1988-ci ildə, Şamaxının Ərəbqədim kəndində doğulub. Bakıdakı Fizika-riyaziyyat və informatika təmayüllü liseyin 2006-cı il məzunudur. İqtisadiyyat Kollecini isə 2012-ci ildə bitirib. «Şou dünya» adlı satirik şeirlər kitabı 2014-cü ildə işıq üzü görüb.*

### *Sevmədiyin şəklin*

Görüşmək çox tezdir, çox tezdir, xanım,
Qoy bir az dərdindən üzülsün canım,
Qoy səni bir az da əlçatmaz sanım,
Hələ istəmirəm sarılım sənə...

Könül bağçasında sevgi gülün dər,
Ömrünün ən gözəl ayın, ilin dər.
Mənə sevmədiyin şəklini göndər,
Qoy baxım, bir az da vurulum sənə.

Qovuşaq, vüsalın yükün daşıyaq,
Bu eşqin incələn tükün daşıyaq.
Gəl indi bir yerdə ömür yaşayaq,
Səndən bezim, bezim... darılım sənə...

### "G"-nın fərqi

"Gecə" sözündəki "G" hərfi,
«Gündüz» sözündəki «G» hərfindən tam fərqlidir.
Biri zülmətin başlanğıcıdır, digəri aydınlığın.
Sənin dilindəki "sevirəm" sözüylə,
mənim dilimdəki "sevirəm" sözü də belə fərqlidir.
Həm də, bu söz sənin dilində, mənimsə qəlbimdədir.

## Gözünə dəymir

Qəzaya uğramır söz qatarımız,
Sözüm dodağının sözünə dəymir.
Görünür xoşbəxtsən bu ayrılıqdan,
əllərin başına, dizinə dəymir...

Könlün aldanıbdı yalan sözlərə,
Gözlərin dikilib saxta gözlərə.
Üzün söykənibdi yaltaq üzlərə,
Çoxdandır nəfəsim üzünə dəymir.

Həyatda ölümün yaddaşı kimi,
Yusif ayaq üstə baş daşı kimi.
Dənizdə balığın göz yaşı kimi,
Mənim ağlamağım gözünə dəymir.



## ZAMAN NURANİ
(Zaman Mahir oğlu Məmmədov) –

*5 aprel 1982-ci ildə Bakıda doğulub. Orta təhsilini paytaxtın Nizami rayonundakı 70 saylı orta məktəbdə alıb. Ailəlidir, bir övladı var.*

### Olub

Mən aclıq, susuzluq keçirməmişəm,
Həmişə bir tikə çörəyim olub.
Neçə hisslərimi köçürməmişəm,
Xalqıma çox arzu, diləyim olub.

Bir quru salamdan çox ummamışam,
Bilərək qəlblərə toxunmamışam;
Dönmüşəm nağıla, oxunmamışam,
Puç olan zəhmətim əməyim olub...

Fələk qarışdırıb köz dərdlərimə,
Deyir, alovlanma, döz, dərdlərimə;
Qatıb dərdlərini öz dərdlərimə,
El üçün ağrıyan ürəyim olub...

Arzular böyükdur, dünya fanidir,
Ömrün bahar vaxtı qəlb Nuranidir,
Bircə Yaradnım məndən halidir,
Şükür ki, həmişə köməyim olub.



## ZAUR SAHİL

(Zaur Fazil oğlu Bağırov) –

*22 iyun 1988-ci ildə Dağıstanın Kaspiysk şəhərində doğulub. 1994-2005-ci illərdə Cəlilabadın Astanlı kənd orta məktəbində təhsil alıb. Hərbçidir.*

*Ədəbi yaradıcılığa məktəb illərindən başlayıb. İlk mətbu şeiri "Ana" 2006-cı ildə "Sözün işığı"(Cəlilabad) dərgisində yayınlanıb. "Nə yamanmış yetimliyin ağrısı" adlı ilk kitabı 2012-ci ildə gün üzü görüb. 2006-cı ildən dövri mətbuatda çap olunur. 2013-cü ildən Gənc Ədiblər Məktəbinin, 2014-cü ildən DGTYB-nin üzvüdür.*

### Saxla görüm

Ay bizi havalı edən,
Dumanı saxla, görüm.
Ucuzu bahalı edən,
Zamanı saxla, görüm.

Əl qıranın əlindən,
Səhv deyənin dilindən,
İnsanın əməlindən,
Yamanı saxla, görüm.

Qoyma güllər soluxsun,
Qoyma gözlər doluxsun,
Qoyma kimsə darıxsın,
Gümanı saxla, görüm...

* * *

Niyə xəyal kimisən,
Niyə gerçək olmursan?
Yoxsa, gedib dünyadan,
Yenidən doğulursan..?

Unutmağa gəlmişdim,
Unutmağın adı yox.
Kədərini nuş etdim,
Kədərinin dadı yox...

Özümü öldürəcəm,
Başdaşım sən olarsan.
Ölümü güldürəcəm,
Göz yaşım sən olarsan

*May 2015, Bakı*

## *MUSİQİ DÜNYASI*

### FƏRİD FƏTULLAYEV –



*7 oktyabr 1991-ci ildə Bakı şəhərində doğulub. İlk musiqi təhsilini forte-piano ixtisası üzrə Qara Qarayev adına 8 saylı musiqi məktəbində alıb və təhsilini daha sonra Milli Təhlükəsizilik Nazirliyinin Mədəniyyət Mərkəzinin nəzdindəki 11 illik musiqi məktəbində davam etdirib. 2009-cu ildə Azərbaycan Milli Konservatoriyasına, Əməkdar İncəsənət Xadimi Bəstəkar Cəlal Abbasovun bəstəkarlıq sinfinə daxil olub.*

*Təhsil aldığı illər ərzində bir sıra əsərlər yazıb. Buraya müstəqil Azərbaycan Respublikasına həsr olunmuş və solist , qiraətçi , xor və simfonik orkestr üçün nəzərdə tutulmuş "Qədim Torpaq" kantatası, simfonik orkestr üçün "Memento" əsəri və "Süita", ansambl üçün "Oyuncaq Dükanı" əsəri, simli kvartet, klarnet və f-no üçün "Ayın qarşısından keçən bulud karvanı" əsəri, violin və f-no üçün "Elegiya", f-no üçün 7 variasiya, Bəxtiyar Vahabzadənin sözlərinə "Bu gecə" romansı , f-no üçün 20-ə yaxın prelüd daxildir. Diplom işi olaraq isə ilk simfoniyasını təqdim edib. Klarnet və f-no üçün yazılmış "Ayın qarşısından keçən bulud karvanı" əsəri 2012-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının gənc bəstəkarların əsərlərindən ibarət Plenumunda (piano İlahə Sadıqzadə, klarnet Nizami Zeynalov), "Simli kvartet" (violin I Elgün Ağazadə, violin II Elgün Ağazadə, viola Üzeyir Mahmudbəyli, cello Murad İbrahimov) və f-no prelüdləri (piano Leyla Əliyeva) isə 2013-cü ildə Azərbaycan Bəstəkarlar İttifaqının gənc bəstəkarlarının kamera əsərlərindən ibarət Plenumunda ifa edilib. Qeyd edək ki, klarnet və f-no üçün yazılmış "Ayın qarşısından keçən bulud karvanı" əsəri 2014-cü il noyabr ayının 4-də Bəstəkarlar İttifaqının 80 illiyinə həsr olunmuş musiqi festivalında Beynəlxalq Muğam Mərkəzində də ifa olunub (piano: Leyla Əliyeva, klarnet Əməkdar artist Əziz Qarayusifli).*

*Dərslərində göstərdiyi fəallığa görə 2012-ci ildə Süleyman Ələsgərov ödülünə layiq görülüb. Musiqi sahəsində fəaliyyətinə görə isə 2013-cü il fevralın 2-də "Gənclər Mükafatı" laueratı olub. 2013-cü ildə konservatoriyanı bitirdikdən sonra 2013-2014-cü illər ərzində hərbi xidmətdə olub. Hərbi xidmətdən qayıtdıqdan sonra təsilini davam etdirərək, 2014-cü ildə Azərbaycan Milli Konservatoriyasında magistr pilləsi üzrə (müəllimi Əməkdar İncəsənət Xadimi Cəlal Abbasovun bəstəkarlıq sinifində) təhsil alır.*

**Annotasiya**

***Əsər 2010-cu ildə yazılıb. Əsərin yazılmasına səbəb göy üzündəki maraqlı bir görüntünün bəstəkarın diqqətini cəlb etməsi olub. Sonradan əsərin adına çevrilən bu görüntü "Ayın qarşısında keçən bulud karvanı" idi. Əsərin ümumi konsepsiyasında səmada baş verən olaylar dayanır və bu olaylar musiqi dili ilə təzadlı şəkildə göstərilib...***

**Fərid Fətullayev**

Ayın qarşısından keçən bulud karvanı



2



3




4
B♭ Cl.
Pno.


B♭ Cl.
accel.
Pno.


5
10
B♭ Cl.
Pno.
8va
f
3
12
pp

6




7
B♭ Cl.
Pno.
mf
Adagio ♩ = 35
loco
mp


8
21
B♭ Cl.
21
Pno.
22
B♭ Cl.
22
Pno.


9
23
B♭ Cl.
Pno.
24
B♭ Cl.
Pno.

10




3

11



12




13
B♭ Cl.
Pno.
B♭ Cl.
Pno.


14
B♭ Cl.
Pno.
B♭ Cl.
Pno.


15
B♭ Cl.
loco
Pno.
B♭ Cl.
Pno.

16




17
B♭ Cl.
pp
Pno.
B♭ Cl.
p
p
Pno.

18




19
48
B♭ Cl.
mp
Pno.
49
mp
mf
3


20
50
B♭ Cl.
mf
f
mf
f
50
Pno.
51
B♭ Cl.
mp
51
Pno.


21
52
B♭ Cl.
52
Pno.
53
B♭ Cl.
mf
accel.
53
Pno.
8va


22
54
B♭ Cl.
Pno.
f
55
ff
8va
Ped.


23
B♭ Cl.
Pno.
loco
loco
f
mf

24




25
B♭ Cl.
Pno.
B♭ Cl.
Pno.

26



27




3 3 3 3



## İLAHƏ QİSMƏT
**(İlahə Qismət qızı İsrafilova) –**

*11 sentyabr 1993-cü ildə Bakıda musiqiçi ailəsində doğulub.*

*1999-cu ildə BÜLBÜL adına Orta İxtisas Musiqi məktəbinə daxil olub. Təhsil müddətində "Fortepiano", "Muğam ifaçılığı" və "Bəstəkarlıq" ixtisasları üzrə oxuyub. Məktəb təhsili illərində pianoçu kimi müxtəlif konsertlərdə öz bacarığını gös-tərib, bəstəkar kimi isə yazdığı əsərləri dinləyicilərə müxtəlif konsertlərdə təqdim edib. Bundan əlavə, hələ kiçik yaşlarından, 5-ci sinifdə ikən bəstələdiyi "Müqəddəs Vətən" marşı hərbi dirijor, Azərbaycan Respub¬li¬ka¬sının Xalq artisti, general Yusif Axundzadənin başçılığı ilə, Xalq artisti Zümrüd Məmmədovanın ifasında Müdafiə Nazirliyinin Əlahiddə nümunəvi Hərbi Nəfəsli Alətlər Orkestrinin repertuarına daxil olub. 2010-cu ildə məktəbi bitirərək Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Tarix-nəzəriyyə" fakültəsinin "Bəstəkarlıq" sinifinə daxil olub. Bu müddətdən dahi bəstəkar, Xalq artisti Arif Məlikovun sinifində bəstəkarlıq ixtisası üzrə təhsil alıb. Həmçinin ikinci ixtisas olaraq da, bu illərdə, Dövlət Akademik Opera və Balet Teatrının dirijoru Əyyub Quliyevdən simfonik orkestr dirijorluğunun sirlərinə yiyələnib. Təhsil müddəti boyu xüsusi fərqləndiyinə görə Qara Qarayev adına fərdi təqaüdə layiq görülüb. Gənc bəstəkar vaxtaşırı konsertlər verib, habelə müxtəlif televiziya proqramlarında əsərləri ifa edilib. Yaradıcılığı boyu yazılmış musiqilər müxtəlif ifaçılar tərəfindən rəğbət görməkdə və həvəslə təbliğ olunmaqdadır.*

*Bakalavr pilləsini fərqlənmə ilə bitirən gənc bəstəkarın təhsil müddətində bəstələdiyi "Hisslər" vokal-instrumental romanslar silsiləsi gənc vokalçı, AzTV-nin solisti, Prezident təqaüdçüsü Aytac Şıxalizadənin ifasında (həmçinin müəllifin ifasında rəngarəng pyeslər) "Qızıl Fond"a daxil olub.*

*2012-ci ildə "Arzulara gedən yolda" qısametrajlı filminə musiqilər bəstələməklə yanaşı, ssenari müəllifliyi edib və həmin filmdə baş rola çəkilib. 2014-cü ildə Bakı Musiqi Akademiyasının "Tarix-nəzəriyyə" fakültəsinin bəstəkarlıq ixtisası üzrə magistratura pilləsinə qəbul olub. Oxuduğu müddətdə yazdığı müxtəlif elmi məqalələrlə də çıxış edib. Bu sırada xalq artisti Arif Məlikov haqqında, Əməkdar incəsənət xadimi*

*Aydın Əzimov haqqında və b. məqalələri qeyd edə bilərik. İstedadlı gəncin publisistik sahədəki bu fəaliyyətinə müəllimləri – akademik, Xalq artisti Oqtay Rəcəbov, Bəstəkarlar İttifaqının katibi, musiqişünas Zemfira Qafarova və b. qiymət veriblər.*

*İlahə Qismət 2014-cü il noyabr ayının 23-də Arif Məlikovun “Məhəbbət əfsanəsi” baletinin Moskvanın Böyük Teatr səhnəsində baş tutmuş premyerasında Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə nümayəndə heyətinin üzvü kimi iştirak edib. “Muğam” vokal-instrumental qrupunda solist olaraq çıxış edir. 2014-cü ildə bəstəkarın (sözləri və musiqisi özünə aid olan) “Sənsizəm” adlı mahnısına “Yeni Ulduz-11”in qalibi Anar Məmmədovun ifasında klip çəkilib. Həmin ildə İlahə Qismətin “Muğamatım bir dəryadır” adlı layihəsi Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun VI qrant müsabiqəsində qalib olmuş, layihə Bakı Musiqi Akademiyasının təşkilati dəstəyi ilə keçirilib və uğurla sonuclanıb. Həmçinin Dövlət Neft Şirkəti, Mədəniyyət və Turizm Nazirliyinin və İTV-nin birgə layihəsi olan “Əsrin müqaviləsi”nin 20 illik yubileyinə həsr olunmuş “20 şanlı il” mövzusunda ən yaxşı vokal əsər müsabiqəsində I yerə layiq görülərək, “Diplom” və qiymətli hədiyyələr qazanıb. Əsər Xalq artisti Samir Cəfərov tərəfindən ifa edilib.*

*2014-cü ildən etibarən Bakı Musiqi Akdemiyasının əməkdaşıdır.*

*Bəstəkarlıq fəaliyyəti zamanı fərqli janrlarda bir çox əsər bəstələyib:*

*“Rəngli lövhələr”- uşaq albomu (2005-2008-ci illərdə yazılmış pyeslər daxildir)*

*“Qalaktika”- proqramlı prelüdlər toplusu (2009-2011- ci illər)*

*“Müqəddəs Vətən” - Hərbi orkestr üçün Marş (2005-ci il )*

*“Sənsizəm” adlı mahnı - söz/mus.- İlahə Qismət (2006-cı il)*

*“Anxiety” (Əndişə) – fortepiano üçün sonatina (2011-ci il)*

*Bəxtiyar Vahabzadənin sözlərinə yazılmış “Hisslər” adlı silsilə romanslar (2011-2012-ci illər)*

*“Arzulara gedən yolda” qısametrajlı filminə musiqilər (2012-ci il)*

*“Yadıma sən düşəndə” xalq mahnısının simli kvartet və balaban üçün işlənməsi (2011-ci il)*

*“Reasons” String Quartet N-1- Bela Bartoka həsr olunub ( 2013-cü il)*

*“Qələbə” Simfonik Poema – Böyük Simfonik Orkestr üçün nəzərdə tutulub (2014-cü il)*

*“Əsrin müqaviləsi” adlı himnn – söz/mus.- İlahə Qismət (2014-cü il)*

*“Paysaqe” adlı əsər - Böyük Simfonik Orkestr üçün nəzərdə tutulub (2015-cı il)*

# MƏN SEVİRƏM ...

Musiqi: Ilahə Qismət
Söz :Bəxtiyar Vahabzadə




Copyright © İlahə Qismət


2
10
hə-yə-ca-nım-dır
Mən se-vi-rəm
da-nı-şır göy-də u-çan bu-lud-
13
lar
mə-nim di-lək-lə-rim-dir
düy-mə-lə-nən bu-daq-
16
lar
Mən se-vir-əm
20
Mən se-vi-rəm
p


3
24
qa-ya-lar - çi-çək a - çır gül a-çır
duy-ğu-lar ü-rə-yim-də dil a-çır
28
ad libitum
Mən se-vir-əm Mən se-vir-əm Mən se-vir-əm

# "Fikir Qanadlarım"




2
10
Voice
Qa-nad-la-rım-dır mə-nim
Pno.
13
Voice
Xə-ya-lın bir hü - du - du
Xə-ya-lın bir həd - di - yox
Pno.
16
Voice
Göy - lə - rin sər-həd-di yox
Sə - ma ki - mi həd - di yox
Pno.
19
Voice
Pno.


3
22
Voice
Mən a - za-dam mən a- zad
Pno.
25
Bir ə - bə - di yo-lum var
Mə-ni yer-dən qal-dı-ran
Fi-kir qa-nad-la-rım var
28
31
Mə-nim qa-nad-la - rım - var
Şi -rin-şi-rin ar - zu-lar


4
34
Voice
Bö-yük-bö-yük xə-yal-lar
Qa-nad-la-rım-dır mə-nim
Pno.
37
Voice
